# BAKI UNİVERSİTETİNİN
# XƏBƏRLƏRİ

ВЕСТНИК
БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS
OF BAKU UNIVERSITY

SOSİAL-SİYASİ
*elmləri seriyası*

*серия*
СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК

*series of*
SOCIAL-POLITICAL SCIENCES

№ 3, 2023

Bakı – 2023

*Baş redaksiya heyəti:*
**Babayev E.S.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N., Məmmədov Y.Ə., Əliyev İ.Ə., Paşayeva N.A., Rəcəbov M.R.** (məsul katib).

*Seriyanın redaksiya heyəti:*
**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N., Əhmədov Ə.C., Əliyev B.H., Əlizadə H.Ə., İsmayılov R.R., Məhərrəmov A.M., Qasımov A.M., Məmmədov R.F., Rüstəmov İ.Ə., Əliyev Ə.İ., Həsənalıyev Z.M., Əliyeva K.R.**

***© Bakı Dövlət Universiteti, 2023***

## HÜQUQ

**UOT 341.14**

# İNSAN HÜQUQLARI PRİNSİPLƏRİNİN TƏMİNATI SAHƏSİNDƏ DÖVLƏTİN MADDİ VƏ İMPLEMENTASİYA ÖHDƏLİKLƏRİ

**T.İ.HÜSEYNOV, A.A.CAHANGİROVA**
***Bakı Dövlət Universiteti***
***turqay@leqcom.orq; aygul.jahan@gmail.com***

*Məqalədə qeyd olunur ki, insan hüquqlarının təmin edilməsi özünün xüsusi beynəlxalq hüquqi spesifikliyinin olması, beynəlxalq hüquq sistemi çərçivəsində insan hüquqlarının ayrıca norma və prinsiplərinin formalaşması ilə xarakterizə olunmaqla inkişaf etdirilməlidir. Bu isə insan hüquqları sferasında dövlətlərin məsuliyyəti, dövlətlərin insan hüquqları beynəlxalq normativ-hüquqi bazanın daha da zənginləşməsini, hüquq normalarının bərqərar olmasını, sferasında öhdəliklərinin dəqiq müəyyən edilərək beynəlxalq nəzarət mexanizmlərinə söykənməsi və s. kimi mühüm elementləri özündə birləşdirməlidir.*

**Açar sözlər:** norma və prinsiplərin formalaşması, normativ-hüquqi bazanın zənginləşməsi, hüquq normalarının bərqərar olması implementasiya öhdəlikləri, insan hüquqları və azadlıqlarının təminatı və s.

İnsan hüquqları sahəsində dövlətlər öz üzərlərinə müxtəlif öhdəliklər götürürlər ki, bu öhdəlikləri də iki qrupa ayırmaq olar. Bunlardan birincisi maddi öhdəliklərdir. Digəri isə implementasiya öhdəlikləridir: "İkinci qrup öhdəliklər–beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş mexanizmlərin fəaliyyəti ilə bağlı dövlətlərin həyata keçirməli olduqları vəzifələrdir. Maddi öhdəliklər, əlbəttə ki, əsas kütləni təşkil edir və çox zaman dövlətlərin insan hüquqları sahəsindəki beynəlxalq öhdəlikləri dedikdə, məhz onlar nəzərdə tutulur. Bu öhdəliklər həm bütövlükdə insan hüquqlarını, həm də ayrı-ayrı hüquq və azadlıqları əhatə edir. Müxtəlif meyarlar tətbiq etməklə, göstərilən öhdəlikləri aşağıdakı növlərə ayırmaq olar: müqavilə öhdəlikləri və beynəlxalq adətdən irəli gələn öhdəliklər; ümumi və konkret öhdəliklər; konkret öhdəliklər öz növbəsində əsas və törəmə öhdəliklərə bölünür; nəticə öhdəlikləri və davranış öhdəlikləri; pozitiv və neqativ öhdəliklər;"dərhal" və "tədricən" yerinə yetirilməli olan öhdəliklər.

Bu və ya digər müqavilənin iştirakçısı olmaqla, dövlət öz üzərinə konkret insan hüquqları ilə bağlı öhdəliklərlə yanaşı, müqavilədə təsbit olunmuş bütün hüquqlara aid olan ümumi öhdəliklər də götürür; məsələn, insan hüquqlarına hörmət etmək; insan hüquqlarının tədricən həyata keçirilməsinə səy göstərmək; insan hüquqlarını təmin etmək; insan hüquqlarını həyata keçirərkən ayrı-seçkiliyə yol verməmək; qanunvericilik və digər tədbirləri həyata keçirmək; effektiv dövlətdaxili hüquqi müdafiə vasitələrini təmin etmək və s. (Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 2-ci maddəsi; İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 2-ci maddəsi; Avropa İnsan Hüquqları Konvensiyasının 1-ci maddəsi və s.).

Vətəndaş və siyasi hüquqlar haqqında Paktın 25-ci maddəsində deyilir ki, "hər cür müharibə təbliğatı qanunla qadağan edilir". Avropa Sosial Xartiyasının 7-ci maddəsinin 2-ci bəndində dövlətlərin üzərinə belə bir vəzifə qoyulur ki, qanunvericilik qaydasında uşaqların təhlükəli və zərərli işlərə buraxılmasının minimal yaş həddini müəyən etsinlər. Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsinin 1-ci bəndində göstərilir ki, "hər bir kəsin həyatı qanunla qorunur". Bütün gətirilən misallarda davranış öhdəliyi müvafiq qanunun qəbul olunmasıdır. Belə bir qanunun qəbul edilməməsi dövlətin beynəlxalq öhdəliyinin pozulması deməkdir.

Azərbaycan Respublikasının Avropa Şurasının üzvü olması, Avropa İnsan Hüquqları Konvensiyasını və onun müvafiq Protokollarını ratifikasiya etməsi Konvensiyada və ya əlavə Protokollarda təsbit olunmuş hüquqların pozulduğu halda və dövlətdaxili səviyyədə pozulmuş hüquqların bərpasına nail oluna bilinmədiyi hallarda vətəndaşların və dövlətin yurisdiksiyası altında olan digər şəxslərin Avropa Məhkəməsinə müraciət etməsinə imkan verir [2, s.24].

Hal-hazırda elə bir insan hüququ yoxdur ki, onun tam təmin edilməsi dövlət tərəfindən hansısa pozitiv hərəkətlər olmadan mümkün olsun.

İnsan hüquqları cəmiyyətdə və dünyada baş verən bütün ən mühüm təzahür və hadisələri ölçməyə imkan verən universal sərvətdir. Hüquq və onun mühüm tərkib hissəsi insan hüquqları, azad siyasət, siyasətçilər və dövlət hakimiyyətinin hüdudlarının müəyyən edilməsinə yönəlmişdir. İnsan hüquqlarının pozulmasına səbəb olan hər bir siyasi tədbir fərdin azadlığına qəsddir. Onlar hüquqa əks və əxlaq qaydalarına ziddir, ona görə ki, insan hüquqları nəinki bəşəriyyətin inkişafının hüquqi təcrübəsinin əks edilməsi, həm də onun mənəvi əsasının, fərdin azadlıq və muxtariyyatına hörmət, onların pozulmasına yol verilməməsi, xeyirxahlıq və umumi rifah kateqoriyalarına istiqamətlənməməsi ilə əlaqədar olan şəffaflaşmasıdır [6, c.164].

Demokratik cəmiyyətdə insan hüquq və azadlıqlarının təminatı cəmiyyətin siyasi azadlıq səviyyəsini səciyyələndirir, onların reallaşma imkanları cəmiyyətin iqtisadi inkişaf səviyyəsindən asılıdır. İnsan hüquqları və

azadlıqlarının təminatının dolğun şəkildə reallaşmasına əlverişli mühitin mövcud olduğu demokratik cəmiyyətdə bu sahədə dövlət siyasətinin həyata keçirilməsi hakimiyyət qollarının müvafiq fəaliyyətlərinin əlaqələndirilməsi mexanizminin daim təkmilləşdirilməsini tələb edir.

İnsan hüquq və azadlıqlarının təmin olunmasını ilk növbədə dövlətlər özləri təmin etməli və hüququ pozulmuş hər bir şəxsin pozulmuş hüquqlarının bərpası üçün milli səviyyədə səmərəli və real dövlətdaxili hüquq müdafiə mexanizmləri olmalıdır.

İnsan hüquqları həm beynəlxalq, həm də milli hüquqda nəzərdə tutulur. Beynəlxalq hüquqda insan hüquqlarının müdafiəsi sahəsində əsas sənədlərə aiddir: 1945-ci il BMTN nizamnaməsi, 1948-ci il İnsan hüquqları haqqında Ümumi Bəyannamə, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, 1966-cı il İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt. İnsan hüquqları sferasında bütün beynəlxalq müqavilələr onu imzalayan dövlətlərin həmin müqavilə üzrə öhdəliklərinin icrası üzrə müddəaları müəyyən edir. Həmin müddəalar elə müvafıq müqavilələrin müxtəlif maddələrində təsbit edilir.

İnsan hüquq və azadlıqlarının təminatı mexanızmlərinin reallaşması tam şəkildə fərdlərin özündən asılıdır. İnsan hüquq və azadlıqlarının təminatının həqiqi reallaşması cəmiyyətdə yüksək siyasi və hüquqi şüurun, siyasi mədəniyyətin inkişafından asılıdır.

İnsan hüquqları haqqında beynəlxalq müqavilələrə onların implementasiyası ilə bağlı müddəaların daxil edilməsi daim inkişaf edir. Beynəlxalq-hüquqi aktların praktik icrası üçün dövlətdaxili orqanlar, müəyyən edilmiş mexanizmlər və onların prosedurları mühüm əhəmiyyət kəsb etməlidir. Dövlətlər bu fəaliyyətin qanunauyğunluğunun təminatının əlavə hüquqi zəmanətlərini yaratmalıdır. Müqavilələrdə və başqa normativ aktlarda müvafıq implementasion normaların mövcudluğu qərarların qəbul olunmasının və onların icrası arasındakı məsafəni azaldır. Beləliklə, beynəlxalq hüquq sənədlərindəki müddəaların qanunvericilikdə təsbit edilməsi beynəlxalq hüquqla müəyyən edilmiş minimal standartlardan daha səmərəli ola bilər.

İnsan hüquqlarının təminatı məsələsi hər bir dövlətin ən ümdə vəzifəsi olmaqla, onun fəaliyyətinin əsas prioritetini təşkil edir. Bu fəaliyyət isə özünü insan hüquqlarına dair milli qanunvericilik bazasının yaradılmasında, bu sahədə beynəlxalq sənədlərin ratifikasiyası və orada nəzərdə tutulan beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyasında, bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla sıx əməkdaşlığın qurulmasında və bu hüquqların təmin olunması üzrə işlək institusional mexanizmlərin təsis edilməsində büruzə verir. İnsan hüquqları haqqında beynəlxalq müqavilələrə onların implementasiyası ilə bağlı müddəaların daxil edilməsi daim inkişaf edir. Beynəlxalq-hüquqi aktların praktik icrası üçün dövlət-

daxili orqanlar, müəyyən edilmiş mexanizmlər və onların prosedurları mühüm əhəmiyyət kəsb etməkdədir.

İnsan hüquqlarının gözlənilmədiyi halda demokratiyadan danışmaq üçün heç bir əsas ola bilməz. Məhz bu səbəbdəndir ki, demokratik ənənələrə söykənən stabil cəmiyyət quruculuğunda maraqlı olan istənilən dövlət öz konstitusiyasında insan hüquqlarına xüsusi yer ayırırlar. Bununla bərabər insan hüquqlarının qorunmasının beynəlxalq mexanizmləri sürətlə təkmilləşərək daha təsirli olmaqdadırlar. İnsan hüquqları və əsas azadlıqların təmin edilməsi prinsipi şəxslərin hüquqi vəziyyətini ehtiva etməklə siyasi-hüquqi ideyaların yuridik anlamda ifadə edilməsidir və dövlət-şəxsiyyət qarşılıqlı münasibətlərinin xarakterini müəyyən edir.

İnsan hüquqlarının müdafiəsi üçün daxili amillər birinci dərəcəli əhəmiyyət kəsb edir. Dövlətlər insan hüquqları haqda beynəlxalq normaların implementasiyası mexanizm və proseduralarını müəyyən edərək insan hüquqları haqqında müqavilələrin praktiki həyata keçirilməsini təkcə özləri üçün asanlaşdırmır, həm də bu fəaliyyətin hüquqauyğunluğunun təmin edilməsinə əlavə təminatlar yaradır.

İnsan hüquqlarının təmin edilməsində dövlət birinci yerdə dursa da, beynəlxalq mexanizm və prosedurların əhəmiyyətini qiymətləndirməmək mümkün deyil. İnsanın özü və deməli, onun hüquq və azadlıqları əsas amildir ki, onun naminə tərksilah olunmaq, bizi əhatə edən ətraf mühiti mühafizə etmək, fəzanı fəth etmək, kontinental şelfin sərvətlərindən istifadə etmək zəruridir.

İnsan hüquqları və azadlıqlarının inkişafı hər bir müasir cəmiyyətin iqtisadi və elmi texniki tərəqqisinin vacib şərti olsa da, onlardan hansısa başqa məqsədlərə nail olmaq vasitəsi kimi istifadə etmək olmaz. Əksinə, cəmiyyətin inkişafı insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldilməlidir. Beləliklə, insan hüquqlarının müdafiəsində bütün – həm dövlətdaxili, həm də beynəlxalq səylər vacibdir [4, c.106].

Azərbaycan Respublikası Avropa Şurasına daxil olarkən öz qanunvericiliyinin əsas beynəlxalq-hüquqi normalara və prinsiplərə uyğunlaşdırmaq öhdəliyini götürməklə yanaşı təsdiq etmişdir ki, bu prinsip və normalara insan hüquqlarının müdafiə edilməsi və onlara hörmət bəslənməsi, dövlətimizdə Avropa standartları mexanizmlərinin, demokratik hüququn tətbiq edilməsi praktikasının bərqərar olması, insan hüquqlarının müdafiəsi və həvəsləndirilməsi sahəsində həm milli, həm də beynəlxalq sistemlərin səmərəsinin artırılması naminə riayət edilməlidir.

Beynəlxalq səviyyədə fəallıq və bir çox beynəlxalq problemlərin həllində iştirak edən dövlətləri bir-birləri ilə siyasi, iqtisadi və s. münasibətlərə daxil olmağa, beynəlxalq müqavilələr bağlamağa cəlb edir. Belə münasibətlərdə dövlətlər həm öz milli maraqlarını nəzərə alır, həmçinin beynəlxalq

hüququn norma və prinsiplərinə də riayət edirlər. Beynəlxalq hüququn dövlətdaxili hüquqa təsiri aşkardır. İnsan hüquqları sferasında bütün beynəlxalq müqavilələr onu imzalayan dövlətlərin həmin müqavilə üzrə öhdəliklərini müəyyən edir. Qəbul olunmuşdur ki, insan hüquq və azadlıqlarına dair standartların əsasını İnsan Hüquqları haqqında Ümumi Bəyannamə təşkil edir. 10 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş bu sənəd sonradan qəbul olunmuş və dövlətlər tərəfindən tanınmış insan hüquq və azadlıqlarına dair çoxsaylı beynəlxalq razılaşmalarda əks olunan hüquq və azadlıqların əsasını təşkil edir.

BMT nizamnaməsinə insan hüquq və azadlıqlarına dair konkret müddəalar daxil edilməyib. Lakin bu sənəd ilk beynəlxalq hüquqi sənədlərdən biri və ən əsasıdır ki, orada şəxsin hüquqlarının universal təminatının zərurəti əks olunmuşdur. Bu sənəddə həmçinin hər hansı ayrı-seçkilik qoymadan hər bir kəsin hüquq və azadlıqlarına hörmət prinsipi əks olunmuşdur.

Müasir qloballaşma şəraitində universal səviyyədə insan hüquqlarının məzmunu və xüsusiyyətləri əhəmiyyətli dərəcədə dəyişmiş və onların müvafiq beynəlxalq hüquqi tənzimlənməsini tələb edən problemlərin geniş spektrini əhatə etmişdir. Bura İnsan hüquqlarının genişlənməsi, dövlətlərin insan hüquqları sferasında beynəlxalq öhdəliklərini yerinə yetirməməsi, dövlətlərin insan hüquqları sferasında məsuliyyəti ilə əlaqədar ciddi beynəlxalq öhdəliklər nəzərdə tutan beynəlxalq hüquq normalarının olmaması və s. xüsusi qeyd edilməlidir.

Qeyd edək ki, insan hüquqlarının beynəlxalq standartları dedikdə, müasir beynəlxalq hüququn müəyyən normaları başa düşülür. Bu normalar dövlətin elə ümumdemokratik tələblərini və öhdəliklərini nəzərdə tutur ki, dövlətlər özünün ictimai quruluşunu, milli inkişafını və s. nəzərə almaqla onları öz sistemində həyata keçirir və konkretləşdirir [3, s.89].

İnsan hüquqlarının təmin edilməsi özünün xüsusi beynəlxalq hüquqi spesifikliyinin olması, beynəlxalq hüquq sistemi çərçivəsində insan hüquqlarının ayrıca norma və prinsiplərinin formalaşması ilə xarakterizə olunmaqla inkişaf etdirilməlidir. Bu isə insan hüquqları sferasında dövlətlərin məsuliyyəti, beynəlxalq normativ-hüquqi bazanın daha da zənginlənləşməsini, hüquq normaların bərqərar olmasını, dövlətlərin insan hüquqları sferasında öhdəliklərinin dəqiq müəyyən edilərək beynəlxalq nəzarət mexanizmlərinə söykənməsi və s. kimi mühüm elementləri özündə birləşdirməlidir [8, c.205].

Beynəlxalq hüququn əsas prinsipləri beynəlxalq hüquq sisteminin əsasını təşkil edir və beynəlxalq-hüquqi tənzimetmədə ən başlıca yer məhz onlara məxsusdur. Belə ki, heç bir beynəlxalq hüquq norması beynəlxalq hüququn əsas prinsiplərinə zidd ola bilməz. Belə ki, Bəyannamədə birbaşa olaraq qeyd edilir ki, beynəlxalq hüququn prinsiplərinin tövsifi və tətbiqi

zamanı onlar qarşılıqlı əlaqədə olurlar və hər bir prinsipin başqa prinsiplərlə birgə nəzərdən keçirilməsi zəruridir.

İnsan hüquqları və azadlıqlarının müdafiəsi haqqında mühüm beynəlxalq hüquqi aktlarda öz əksini tapmış universal normaya əsasən, müvafiq konvensiyanın və ya paktın iştirakçısı olan hər bir dövlət öz fəaliyyətində bu hüquq və azadlıqlara hörmət prinsipini rəhbər tutmağa, hər hansı bir ayrı-seçkiliyə yol vermədən bunlara riayət etməyə və həmin dəyərləri öz milli qanunvericilik sistemlərində əks etdirməyə borcludur. İnsan hüquqları və azadlıqlarına hörmət prinsipi ümumi xarakter daşıyan vəzifə kimi üzv-dövlətin yurisdiksiyasında olan bütün şəxslər barəsində bu hüquq və azadlıqlara şərtsiz riayət edilməsini nəzərdə tutur.

XXI əsrdə beynəlxalq hüquq və beynəlxalq hüquqda insan hüquqları dinamik çoxsahəli sistemə çevrilir ki, bu da bir tərəfdən bu hüquq sisteminin özünün qloballaşma təhdidləri və çağırışlarının təsiri altında, digər tərəfdən beynəlxalq münasibətlərin özlərinin sürətli transformasiyasına dəyişmək qabiliyyəti ilə bağlıdır. Proses İnsan hüquqları sferasında dövlətlərin müvafiq sistemlərini nəzərdə tutan təşkilati və müqavilə mexanizmlərində iştirakını, o cümlədən həmin normaların dövlətdaxili qanunvericiliyə səmərəli implementasiyasını həyata keçirən dövlətdaxili qanunvericilik sistemlərinin (normativ və təşkilati) formalaşdırılması ilə davam etməlidir [7, c.124].

Bir sıra dövlətlərin konstitusiyaları və eləcə də AR Konstitusiyası beynəlxalq hüququ təkcə ölkənin hüquq sisteminin tərkib hissəsi elan etmir, həm də ona birbaşa və qanunlar qarşısında üstün hüquqi qüvvə verir. Onlar qanunlar qarşısında prioritetə malikdirlər və ölkə əhalisi üçün birbaşa hüquq və vəzifələr yaradırlar. Bu müddəa özü icra olunandırsa, heç bir əlavə implementasiya edən qanun olmadan beynəlxalq hüquq normalarını tətbiq edə bilmək imkanı verir. Lakin, təcrübə göstərir ki, beynəlxalq hüquq normalarının tətbiqi yalnız o halda mümkündür ki, onlar milli hüquq normaları ilə ziddiyyət təşkil etməsinlər. Bu cür ziddiyyət zamanı məsələ Konstitusiya Məhkəməsinin baxışına təqdim edilir və o beynəlxalq hüquqa zidd qanunu qeyri-konstitusion elan edə bilər.

Beynəlxalq hüququn, o cümlədən beynəlxalq insan hüquqları standartlarının dövlətdaxili implementasiyası üçün adekvat hüquqi əsas müəyyən edən 12 noyabr 1995-ci il tarixli AR Konstitusiyası və AR tərəfindən insan huquqları sahəsində qəbul edilmiş digər normativ-hüquqi aktlar beynəlxalq hüquq normalarına hörmət prinsipi üzərində qurulmuşdur. Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının qorunması qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə mühüm bir vəzifə kimi qoyulmuşdur. Eyni zamanda, Konstitusiya ilə insan və vətəndaş hüquqlarının üstünlüyü və ölkə ərazisində birbaşa qüvvəsi elan edilir, onların təmin olunması AR-in ali məqsədi olduğu bəyan edilir.

İnsan hüquqlarının müdafiəsində mühüm beynəlxalq normalarla yanaşı, bu sahədə beynəlxalq nəzarət mexanizmləri praktikasının, xüsusən də Avropa İnsan Hüquqları Məhkəməsi presedent hüququnun tətbiqi xüsusi yer tutur. AR Prezidentinin 2006-cı il 19 yanvar tarixli «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Fərmanının 6-cı bəndində AR Ali Məhkəməsi və AR Apelyasiya Məhkəmələrinə tövsiyə edilmişdir ki, insan hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etsinlər və onu məhkəmə təcrübəsində nəzərə alsınlar. Daha sonra, «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında» AR Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamının 5-ci bəndində AR Konstitusiya Məhkəməsinə və AR Ali Məhkəməsinə tövsiyə edilmişdir ki, insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının məhkəmə təcrübəsində tətbiqini təmin etsinlər.

Beynəlxalq hüquq və dövlətdaxili hüququn nisbəti məsələsi beynəlxalq hüquq nəzəriyyəsində başlıca məsələlərdən biridir. Bu iki sistemin nisbəti müasir dövrdə beynəlxalq əməkdaşlığın müxtəlif formalarının sürətli inkişafı, beynəlmiləlləşmə prosesinin dərinləşməsi, iqtisadi inteqrasiya prosesləri ilə əlaqədar xüsusilə böyük əhəmiyyət kəsb etmişdir. Bütün bu amillər dövlətlərin beynəlxalq hüququn təkcə ənənəvi sahələrində deyil, həm də əvvəllər onların milli-hüquqi tənzimləmə predmetinə daxil olan sahələrində öz fəaliyyətini uzlaşdırmaq üçün ondan daha geniş istifadə etməli olduqlarının zəruriliyini şərtləndirir [9, c.144].

İnsan hüquqları sahəsində beynəlxalq hüquq prinsip və normalarının təşəkkülü və inkişafı labüd olaraq onun dövlətdaxili qanunvericiliklə nisbəti məsələsini ortaya çıxarır. Beynəlxalq hüquq və dövlətdaxili hüquq daim inkişaf edir, dəyişir və bu onların qarşılıqlı təsirini şərtləndirir və onların ümumilikdə, xüsusilə də insan hüquqları sahəsində nisbəti məsələsini kəskin nəzəri-praktiki problemə çevirir. Ona maraq «soyuq müharibənin» qurtarması, gərginliyin azalması, beynəlxalq anlaşma və əlaqələrin intensivləşməsi, xalqların həyatının beynəlmiləlləşməsi prosesinin, iqtisadi və müəyyən dərəcədə siyasi inteqrasiyanın, beynəlxalq münasibətlərdə insan amilinin rolunun yüksəlməsi ilə əlaqədar xüsusilə artır [10, c.156].

Beynəlxalq hüquq doktrinasında beynəlxalq hüquq və dövlətdaxili hüququn nisbətinə münasibətdə müxtəlif baxışlar mövcuddur. Bəzi alimlər dualist, başqaları monist konsepsiyasını müdafiə edirlər. Dualizmin mahiyyəti ondan ibarətdir ki, beynəlxalq hüquq və dövlətdaxili hüquqa bir-birindən fərqli, lakin qarşılıqlı əlaqəli sistem kimi baxılır. Bu konsepsiyaya görə heç bir hüquq qaydası başqası üçün norma yarada bilməz və onu dəyişdirə bilməz.

İnsan Hüquqları sahəsində insan hüquqları prinsiplərinin müdafiəsi üzrə milli mexanizmlər vacib rol oynayır. Milli mexanizmlər dedikdə ilk növbədə müvafiq dövlətdaxili orqanlar nəzərdə tutulur. Bununla belə vətəndaş cəmiyyəti qurumları və kütləvi informasiya vasitələri də öz fəaliyyətlərində insan hüquqlarını müdafiə edən milli mexanizmlər rolunda çıxış edə bilirlər. Belə olan halda insan hüquqlarını müdafiə edən milli təsisatlar hökumət və qeyri-hökumət təsisatlarına bölünür.

Dövlətdaxili hüquq həmin dövlətdə beynəlxalq hüququn bütunlüklə və ya qismən tətbiq olunmasını nəzərdə tutarsa, bu yalnız dövlətdaxili hüquq üstünlüyünün, beynəlxalq hüquq normalarının qəbul edilməsi və ya transformasiyasının təzahürüdür. Bu hüquq sistemləri arasında kolliziya olduqda dualist nəzəriyyə tərəfdarı «milli məhkəmə milli qanunu tətbiq edir» nöqteyi nəzərindən çıxış edir. Dualizm sıx sürətdə pozitivist doktrina ilə əlaqədardır ki, bu dövlətlərin praktikasından başqa beynəlxalq hüququn digər mənbələrinin qüvvəsini də heçə endirməyə meyllidir [11, p.48].

Dövlətdaxili hüququn primatlığı nəzəriyyəsi başlıca olaraq XIX əsrin II yarısı - XX əsrin əvvəlində alman alimləri arasında öz tərəfdarlarını tapmışdı. Onlar milli dövləti «yer üzündə mütləq hakimiyyət» adlandıran və bu hakimiyyəti öz iradəsinə görə təkcə dövlətdaxili hüququ deyil, beynəlxalq hüququ da dəyişdirməyə qabil hesab edən Hegelin təsiri altında olmuşlar. Hazırda manizm nəzəriyyəsi tərəfdarlarının böyük əksəriyyəti beynəlxalq hüququn dövlətdaxili hüquq üzərində üstünlüyü fikrini müdafiə edir. Müasir beynəlxalq münasibətlərdə bu üstünlüyün bir sıra alimlər tərəfindən tanınması onların dövlət suverenliyindən tamamilə imtina etməklə dünya dövləti və dünya hüququ yaratmaq ideyasını irəli sürmələri ilə əlaqədardır.

Müasir mərhələdə bütün dünya dövlətlərinin qəbul etdikləri reallıq ondan ibarətdir ki, insan hüquqlarını qəbul etmədən, onların normativ əsaslarını şərtləndirmədən və qorunması mexanizmlərini inkişaf etdirmədən stabil cəmiyyət qurmaq qeyri-mümkündür. İnsan hüquqlarının gözlənilmədiyi halda demokratiyadan danışmaq üçün heç bir əsas ola bilməz. Məhz bu səbəbdəndir ki, demokratik ənənələrə söykənən stabil cəmiyyət quruculuğunda maraqlı olan istənilən dövlət öz konstitusiyasında insan hüquqlarına xüsusi yer ayırırlar. Bununla bərabər insan hüquqlarının qorunmasının beynəlxalq mexanizmləri sürətlə təkmilləşərək daha təsirli olmaqdadırlar. Müasir dünyanın mühüm problemlərindən biri də müasir dünya insanlarının daxil olduğu sosial münasibətlərin qloballaşmasının ən mühüm sahələrində insan hüquqlarının vəziyyətini təhlil etməkdir: sosial, ekoloji, demoqrafik, miqrasiya; insan hüquq və mənafelərinin qloballaşma prosesləri ilə qarşılıqlı təsirinin müsbət və mənfi tərəflərini, insan və xalqların hüquq və ləyaqətini qorumağa və müdafiə etməyə çağırılan milli dövlətlərin rolunu göstərmək. İnsan hüquq və azadlıqlarının qorunmasında beynəlxalq qurumların rolu

hal-hazırda xüsusilə artır ki, bu qurumların heç də həmişə belə müdafiə mexanizmləri yoxdur və ya təkmilləşməkdədir. Müasir dünya minlərlə insanın həyatına son qoyan müharibələr, dövlətlərarası və vətəndaş millətlərarası münaqişələr, insanların normal həyatını məhv edən saysız-hesabsız fəlakətlərlə müşayiət olunur. Buna görə də silahlı beynəlxalq və daxili münaqişələr zamanı insanı, onun həyatını, ləyaqətini, evini, əmlakını qorumaq üçün nəzərdə tutulmuş humanitar hüququn mahiyyətinə çox diqqət yetirilməlidir.

**ƏDƏBİYYAT**


1. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi. – Bakı: - 2019.
2. Əliyev Z.H.. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. – Bakı: AZSEA, - 2012.
3. Qənbərov D. İnsan hüquqlarının nəzəri-hüquqi əsasları və onların qorunması problemi. – Bakı: Papirus NP, - 2016.
4. Гусейнов Л.Г. Международного правовое обязательства государств в области права человека. – Баку: - 1998.
5. Азаров А.Я. Система защиты прав и свобод человека. – Москва: Московская школа прав человека, - 2010.
6. Афанасьева С.А. Реализация политических прав свобод человека и гражданина. – Москва: Экон-информ, - 2012.
7. Лукашук. О.И. Задачи и принципы толкования норм международного права. – Москва: - 1996.
8. Захарова Н.В. Выполнение обязательств вытекающих из международного договора. – Москва: - 2017.
9. Марочкин С.Ю Проблемы реализации норм международного права. – Москва: - 1988.
10. Donnelly J. Universal Human Rights in theory and practice. Third edition. – London: Cornell University Press, - 2013.
11. Stearns N.Peter. Human Rights in World History. - London and New York: Routledge, - 2012.


## МАТЕРИАЛЬНЫЕ И ИСПОЛНИТЕЛЬНЫЕ ОБЯЗАТЕЛЬСТВА ГОСУДАРСТВА В ОБЛАСТИ ОБЕСПЕЧЕНИЯ ПРИНЦИПОВ ПРАВ ЧЕЛОВЕКА

**Т.И.ГУСЕЙНОВ, А.А.ДЖАХАНГИРОВА**

**РЕЗЮМЕ**

В статье отмечается, что обеспечение прав человека должно развиваться путем обладания своей особой международно-правовой спецификой и формирования отдельных норм и принципов прав человека в рамках международно-правовой системы. Это ответственность государств в сфере прав человека, дальнейшее обогащение правозащитной международной нормативно-правовой базы государств, установление правовых норм, четкое определение своих обязательств в этой сфере и опора на международные стандарты, механизмы контроля и т.п. должны включать в себя самые важные элементы.

**Ключевые слова:** формирование норм и принципов, обогащение нормативно-правовой базы, установление правовых норм, обязательства по их реализации, гарантия прав и свобод человека и т.д.

## MATERIAL AND IMPLEMENTATION OBLIGATIONS OF THE STATE IN THE FIELD OF ENSURING THE PRINCIPLES OF HUMAN RIGHTS

**T.I.HUSEYNOV, A.A.CAHANGIROVA**

**SUMMARY**

It is noted in the article that the provision of human rights should be developed by having its own special international legal specificity and the formation of separate norms and principles of human rights within the framework of the international legal system. This is the responsibility of the states in the sphere of human rights, the further enrichment of the human rights international normative-legal base of the states, the establishment of legal norms, the precise definition of their obligations in the sphere and the reliance on international control mechanisms, etc. should include such important elements.

**Keywords:** formation of norms and principles, enrichment of the normative-legal base, establishment of legal norms, implementation obligations, guarantee of human rights and freedoms, etc.

UOT 341.2

# AZƏRBAYCAN RESPUBLİKASINDA GENDER BƏRABƏRLİYİNİN VƏ DAVAMLI İNKİŞAFIN QANUNVERİCİLİK TƏMİNATLARI

**Ə.Q.MƏMMƏDOV, A.E.QİBLƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***elizade.memmedov@mail.ru,***
***aytac.giblaliyeva@gmail.com***

*Məqalədə qeyd olunur ki, qanun gender bərabərliyinin təmin edilməsi ilə bağlı siyasətin müəyyən edilməsi və onun həyata keçirilməsi üçün müvafiq tədbirlərin görülməsi vəzifələrini dövlətin üzərinə qoyur. Gender bərabərliyi problemlərini hədəfləyən dövlət proqramlarının qəbul edilməsi dövlətin həqiqətən də bu istiqamətdə tərəqqiyə olan marağını və iradəsini ifadə edir. Tərəqqinin əldə edilməsi bu cür proqramların qəbul edilməsi ilə yanaşı onların nəzərdə tutulan hədəflərə müvafiq qaydada həyata keçirilməsini, dəyişən mühitə uygunlaşdırılmasını və yenilənməsini də tələb edir. Məqalədə qeyd olunur ki gender bərabərliyinin təmin edilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanı həyata keçirir, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanı öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məlumat təqdim edir.*

**Açar sözlər:** insan hüquqları, gender bərabərliyi, dövlət proqramları, insan və vətəndaş hüquq və azadlıqları, qadın əməyi və s.

2006-cı ildə qəbul edilmiş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu gender bərabərliyinin təmin edilməsi üzrə ən mühüm təşəbbüslərdən hesab edilir. Qanunun 1-ci maddəsi onun məqsədinin cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarət olması kimi müəyyən edib. Qanunun 5-ci maddəsi bəyan etdiyi məqsədlərə adekvat olaraq gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin aşağıdakı əsas istiqamətlərini müəyyən edib:

•gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın

formalaşdırılması, təkmilləşdirilməsi və inkişafı;

•normativ hüquqi aktların gender ekspertizasından keçirilməsi;

•gender bərabərliyinin təmin edilməsi üçün dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;

•gender bərabərliyi mədəniyyətinin təbliği.

Konstitusiyanın 7-ci maddəsinin müddəalarına görə Azərbaycan hüquqi dövlətdir, dövlət hakimiyyəti hüquqla məhdudlaşdırılıb və hakimiyyətlərin bölünməsi prinsipi əsasında fəaliyyət göstərir. 71-ci maddədə qeyd olunur ki, konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

İnsan hüquqlarının təminatı sahəsində AR-in tutduğu mövqe özündə beynəlxalq hüquq normalarına tam hörmət prinsipini əks etdirir. Konkret insan hüquqlarına gəldikdə, bu zaman AR Konstitusiyasının 12-ci maddəsi xüsusi qeyd edilməlidir. Belə ki, 12-ci maddənin 1-ci hissəsinə görə, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. 18 mart 2009-cu il tarixli referendumda Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərdə dövlətin ali məqsədinə insan hüquqları ilə bərabər AR vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi müddəasının da gətirilməsi insan hüquqlarına əlavə dəyər vermişdir. Həmin maddənin 2-ci hissəsinə görə isə, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Bu isə, AR-də insan hüquq və azadlıqlarının beynəlxalq hüquq normalarına tam uyğunlaşdırılması istiqamətində atılan müsbət addım kimi qiymətləndirilməlidir. Daha sonra, 71-ci maddənin 6-cı hissəsində qeyd edilir ki, AR ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir. Yəni insan hüquqları sahəsində beynəlxalq hüququn milli hüquq üzərindəki üstünlüyü qəbul edilir, dövlət hakimiyyətinin insan hüquqları ilə bağlı fəaliyyətinə nəzarəti həyata keçirir. İnsan hüquqları sahəsində beynəlxalq müqavilə müddəalarının əksəriyyəti özözünə icra olunan deyildir. Buna görə də insan hüquqlarının müdafiəsinin daha real təmininin ən yaxşı vasitəsi onların milli qanunvericiliyə transformasiyası olardı. Belə ki, AR Konstitusiyasının 148-ci maddəsinin II hissəsində deyilir ki, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR-in qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Doğrudan da göstərilən müddəa beynəlxalq və dövlətdaxili hüquq normalarının qarşılıqlı əlaqəsinin müəyyən edilməsində xüsusi yer tutur.Konstitusiyanın 26-cı maddəsinə görə hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ var. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

Azərbaycan Konstitusiyasının 25-ci maddəsində bərabərlik hüququ qeyd olunur, hamının qanun və məhkəmə qarşısında bərabər olması, kişi və qadınların hüquq bərabərliyi, eləcə də bərabərlik hüququ ilə qarşılıqlı surətdə bağlı olan ayrı-seçkılıyə yol verilməməsi prinsipi qeyd olunub [1].

Qanun gender bərabərliyinin təmin edilməsi ilə bağlı siyasətin müəyyən edilməsi və onun həyata keçirilməsi üçün müvafiq tədbirlərin görülməsi vəzifələrini dövlətin üzərinə qoyur. Azərbaycan Respublikasında gender bərabərliyinin təminatları üzrə institusional əsasların təşkili "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanunun qəbulundan əvvələ təsadüf edir. 1998-ci ildə fəaliyyətə başlayan Qadın Problemləri üzrə Dövlət Komitəsi bu istiqamətdə fəaliyyət göstərən əsas dövlət qurumu kimi çıxış edirdi. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 fevral tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) yaradılması ilə həmin Komitənin mövcudluğuna son qoyulmuş və onun vəzifələrini daha geniş səlahiyyətlərlə AQUPDK həyata keçirməyə başlamışdı.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatlari haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikasi Prezidentinin 29 noyabr 2006-cı il tarixli Fərmanı ilə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu və 20-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərinin həyata keçirilməsi AQUPDK-ya həvalə edilmişdir.

Azərbaycan Respublikasi Nazirlər Kabinetinin 19 dekabr 2011-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları"na müvafiq olaraq məişət zorakılığı ilə bağlı Məlumat Bankı yaradılmışdır. Qaydalara əsasən dövlət orqanları və məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzləri məişət zorakılığı halları ilə bağlı məlumatları məlumat bankının funksionallığına məsul olan AQUPDK-ya təqdim etməlidirlər. Məlumat bankında baş vermiş məişət zorakılığı halları, məişət zorakılığı halları ilə bağlı dövlət orqanlarına müraciət etmiş şəxslər, məişət zorakılığı halları ilə bağlı aparılmış araşdırmalar və araşdırmaların nəticələri, məişət zorakılığı halları ilə əlaqədar məsuliyyətə cəlb edilmiş şəxslər, məhkəmə qərarları, o cümlədən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, eləcə də valideynlik hüquqları bərpa edilmiş və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ləğv edilmiş şəxslər, akkreditə edilmiş yardım mərkəzləri, onların fəaliyyəti barədə və digər məlumatlar toplanır.

Gender bərabərliyinin təmin edilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanı həyata keçirir. Gender bərabərliyinin təmin edilməsinə nə-

zarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanı öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məlumat təqdim edir.

2010-u ilin iyununda BMT Baş Məclisi BMT sistemində gender bərabərliyi və qadınların hüquq və imkanlarının genişləndirilməsi məsələləri üzrə BMT-qadınlar (Vnited Nations Entity' for Gender Equality and the Empowerment of Women) adlanan struktur yaratmışdır. Bu strukturun yaradılması BMT-nin islahatlarının tərkib hissəsi kimi onun bu sahədə dörd bölməsinin imkanlarının birləşdirilməsini nəzərdə tutur [2]:

- Qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə beynəlxalq tədris və elmi-tədqiqat institutu
- Gender məsələləri və qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə Xüsusi müşavirin dəftərxanası – UNİFEM.

Azərbaycanda gender bərabərliyinin təminatlarını nəzərdə tutan ayrıca dövlət proqramı heç zaman mövcud olmamışdır. Bu məsələ ilə bağlı müəyyən tədbirlər aşağıda qeyd edilən müxtəlif dövlət proqramlarında nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planında AR Prezidentinin 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş Planda qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması, bu sahədə geniş maarifləndirmə işinin təşkil edilməsi; Azərbaycan Respublikasının tərəfdar çıxdığı, BMT-nin Mülki və siyasi hüquqlar, iqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktlardan, Uşaq hüquqları haqqında, Qadınlara münasibətdə ayrı- seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyalardan, habelə transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyaya insan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında Protokoldan irəli gələn öhdəliklərin tam həcmdə yerinə yetirilməsi və həmin sənədlərə riayət olunmasının təmin edilməsi; əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi; ayrı-seçkiliyin qadağan edilməsi, sülh və dözümlülük mədəniyyətinin təbliği məqsədilə Azərbaycan Respublikasının şəhər və rayonlarında maarifləndirmə tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur [3].

Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər) qəbul olunmuşdur.

Proqramın vəzifələrinə məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi və qadınların əmək bazarında rəqabət qabiliyyətlərinin artırılması məsələləri daxil edilmiş; Beynəlxalq Əmək Təşkilatının "Ailə öhdəlikləri olan işçilər: kişi və qadın işçilər üçün bərabər rəftar və bərabər imkanlar haqqında" 156 saylı və "Əməyin təhlükəsizliyi və gigiyenası haq-

qında" 155 saylı Konvensiyalarının ratifikasiyaya hazırlanması kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur [4].

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2008-2010-cu illər) işlənib hazırlanmışdır.

Dövlət Proqramı gender bərabərliyi təminatının yaxşılaşdırılması üzrə geniş tədbirlər nəzərdə tutulmuşdur. Planın Gender Siyasəti bəndi altında gender bərabərliyi mexanizminin inkişaf etdirilməsinə yönələn qanunvericiliyin gender axımından təkmilləşdirilməsi; mövcud qanunvericiliyin, yeni qəbul olunacaq qanun layihələrinin gender ekspertizasının aparılması; Ailə Məcəlləsinin ekspertizasının aparılması; gender bərabərliyi və ailə məsələləri üzrə Milli Fəaliyyət Planının hazırlanması; mərkəzi və yerli icra hakimiyyəti orqanları və bələdiyyələrdə gender siyasətinin həyata keçirilməsi prosesinin təkmilləşdirilməsi; müvafiq strukturlarda gender siyasəti üzrə məsul şəxslər üçün texniki vəzifələrin hazırlanması; gender bərabərliyi və uşaqlarla bağlı mövcud siyasətlərin monitorinqi və qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi üçün müvafiq məlumat bazasının yaradılması; cinslər üzrə dezaqreqasiya edilmiş məlumatların toplanılması, təhlili və təqdimatı üzrə müvafiq strukturların potensialının inkişaf etdirilməsi; qərarların qəbul edilməsi prosesində qadınların iştirakının artırılmasına mane olan səbəblərin araşdırılması və qiymətləndirilməsi; ölkədə gender bərabərliyi üzrə vəziyyət barədə illik hesabatların hazırlanması; büdcənin formalaşdırılması zamanı gender amilinin nəzərə alınması mexanizminin yaradılması; gender məsələləri üzrə əhalinin maarifləndirilməsi işinin təkmilləşdirilməsi; aktual gender problemləri və onların həlli istiqamətində mövcud olan müsbət təcrübənin KİV-lərdə işıqlandırılması; dində qadının rolu haqqında yanlış təsəvvürlərin aradan qaldırılması üzrə müvafiq maarifləndirmə işinin aparılması; «Qadınlara qarşı zorakılıq - insan hüquqlarının pozulmasıdır» mövzusunda müzakirələrin təşkil edilməsi tədbirləri nəzərdə tutulmuşdur.

Planın Gender zorakılığı, uşaqlara qarşı zorakılıq, eləcə də insan alveri hallarına qarşı mübarizənin gücləndirilməsi bəndi altında gender zorakılığı və uşaqlara qarşı zorakılıq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi; gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizminin yaradılması; gender zorakılığı və uşaqlara qarşı zorakılığı yaradan səbəblər və qarşısının alınmasına mane olan amillərin müəyyən edilməsi üzrə qiymətləndirmənin aparılması; erkən nikah hallarının azaldılması istiqamətində fəaliyyətin gücləndirilməsi; nikah yaşına təsir göstərən sosial-iqtisadi amillərin öyrənilməsi məqsədilə qiymətləndirmənin aparılması; erkən nikah hallarının azaldılması məqsədilə mövcud qanunvericiliyin pozulması hallarına qarşı mübarizənin gücləndirilməsi və ictimai nəzarətin artırılması; gender zorakılığı və uşaqlara qarşı zorakılıq, eləcə də insan alveri hal-

larının aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində fəaliyyət göstərən müvafiq qurumların (hüquq-mühafizə, tibb, sosial xidmət, təhsil, miqrasiya strukturları və KİV) potensialının gücləndirilməsi; qadınların ölkədən kənarda məşğulluğunun təhlükəli tərəfləri və mümkün nəticələri haqqında əhalinin maarifləndirilməsi; Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planının icrasının təmin olunması tədbirləri nəzərdə tutulmuşdur.

Gender problemləri və fəaliyyət platforması baxımdan siyasət və proqramların gözdən keçirilməsi üzrə bütün nazirliklərə mandat verilməli; bu mandatın yerinə yetirilməsi məsuliyyəti mümkün qədər yüksək səviyyədə rəhbərliyin üzərinə qoyulmalı; bu mandatın yerinə yetirilməsi üçün həmçinin müvafiq mexanizmlərlə qarşılıqlı əlaqəsi və tərəqqiyə nəzarət etmək məqsədi ilə idarələrarası əlaqələndirmə strukturları təşkil edilməli və möhkəmlənməlidir [5, s.120].

Gender üzrə müəyyən olunmuş məlumatlara çıxış imkanlarının artırılması bəndi altında isə qadınlara və uşaqlara qarşı zorakılıq halları haqqında məlumatın toplanması və nəşr etdirilməsi; cinslər üzrə qruplaşdırılmış məlumatların toplanması, təhlili və sənədləşdirilməsi sistemini təkmilləşdirmək üçün müvafiq qurumların potensialının inkişaf etdirilməsi; GİI (Gender inkişaf indeksi) və GSVÖ-nü (Gender səlahiyyətvermə ölçüsü) hesablamaq üçün məlumatların əldə olunması və toplanması imkanlarının təkmilləşdirilməsi tədbirləri nəzərdə tutulmuşdur.

2007-2011-ci illəri əhatə edən Proqram gender bərabərliyinin təmin edilməsi üzrə geniş tədbirlər planını özündə ehtiva edir. Proqrama strateji planların işlənib hazırlanması; krizis mərkəzləri şəbəkəsinin yaradılması; zorakılığın qarşısının alınması haqqında illik hesabatın hazırlanması; müvafiq qanunların və Konvensiyaların qəbulu; qadınlar arasında işsizliyin azaldılması məqsədilə əlavə təhsilin təşkil edilməsi; zorakılıqla bağlı statistik tədqiqatların aparılması; təhsil müəssisələrində insan hüquqları sahəsində silsilə tədbirlərin keçirilməsi; gündəlik həyatda zorakılığın qarşısının alınması ilə bağlı məlumat azadlığının təmin edilməsi; məlumat əldə edilməsi qaydalarının və üsullarının təkmilləşdirilməsi, zorakılığın müxtəlif formaları, səbəb və nəticələri barədə əhalinin bilik səviyyəsini artırmaq məqsədilə mütəxəssislər tərəfindən bu mövzuya həsr olunmuş məlumatların hazırlanması və nəşr edilməsi; zorakılığın ən ağır formalarından biri olan insan alverinin, xüsusilə qadın və uşaq alverinin qarşısını əvvəlcədən almaq məqsədilə təbliğat işlərinin gücləndirilməsi; universitetlərdə bərabərlik və xüsusilə də qadınlara qarşı zorakılıqla bağlı təhsil proqramlarının hazırlanması kimi geniş spektri əhatə edən tədbirlər daxil edilmişdir [6].

“Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası 29 dekabr 2012-ci ildə təsdiq edilmiş Konsepsiyanın “Gender bərabərliyinin təmin

olunması və ailənin inkişafı" adlanan 7.4. bəndində qeyd edilmişdir ki, ölkədə gender bərabərliyinin təmin edilməsi məsələsi diqqət mərkəzində saxlanılacaq və onun həlli istiqamətində müvafiq tədbirlər gerçəkləşdiriləcəkdir. Bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini gender əsaslı zorakılıq hallarının qarşısının alınması üzrə tədbirlərin görülməsi, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların yaradılması, qadınların işdə irəli çəkilmək, rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi təşkil edəcəkdir. Konsepsiyada bu istiqamətlərin reallaşdırılması üçün "Azərbaycan ailəsi Strategiyası"nın, gender bərabərliyi üzrə Milli Fəaliyyət Planının, Uşaq Məcəlləsinin və Milli Uşaq Strategiyasının hazırlanması, eyni zamanda, "Ailə psixoloqu" institutu, məişət zorakılığına məruz qalmış şəxslər üçün yardım mərkəzləri və sığınacaqlar, həmçinin ölkədə zorakılıq, təhsildən yayınma və erkən nikah halları üzrə monitorinq sisteminin yaradılması kimi bir sıra məqsədli sənədlərin qəbul edilməsi qeyd edilmişdir [7]. Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı qəbul edilmişdir.

Bu Milli Fəaliyyət Planı insan alverinə qarşı mübarizə sahəsində qanunvericilik; insan alverinin qarşısının alınması və profilaktikasının gücləndirilməsi; insan alveri cinayətlərinə qarşı cinayət təqibi; insan alveri qurbanlarının reabilitasiyası və reinteqrasiyası; insan alverinin qurbanı olmuş və ya potensial qurbanı olan uşaqlara göstərilən yardımın və onların müdafiəsinin təkmilləşdirilməsi; insan alveri qurbanlarının müdafiəsi; Milli Fəaliyyət Planı iştirakçılarının fəaliyyətinin, insan alverinə qarşı mübarizə üzrə dəstəyin və resursların əlaqələndirilməsi; insan alverinə qarşı mübarizə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi; insan alverinə qarşı mübarizə ilə bağlı maarifləndirmə tədbirlərini əhatə etmişdir [8].

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016–2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Ümumilikdə BMT tərəfindən üzv ölkələrlə 2030- cu ilə kimi yerinə yetirilməsi nəzərdə tutulan 17 Dayanıqlı İnkişaf Məqsədi razılaşdırılmışdır. Onlardan özündə 9 hədəfi birləşdirən "Gender bərabərliyinə nail olmaq, bütün qadın və qızların səlahiyyətləndirilməsi" adlanan 5-ci Məqsəd gender bərabərliyinin bütün sahələrdə təmin edilməsi ilə bağlıdır [9].

Gender bərabərliyi problemlərini hədəfləyən dövlət proqramlarının qəbul edilməsi Dövlətin həqiqətən də bu istiqamətdə tərəqqiyə olan marağını və iradəsini ifadə edir. Tərəqqinin əldə edilməsi bu cür proqramların qəbul edilməsi ilə yanaşı onların nəzərdə tutulan hədəflərə müvafiq qaydada

həyata keçirilməsini, monitorinqinin aparılmasını, dəyişən mühitə uyğunlaşdırılmasını və yenilənməsini də tələb edir.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun 5-ci maddəsi gender bərabərliyinin təmin edilməsi üzrə dövlət siyasətinin əsas istiqamətləri sırasında qanunvericilik məsələlərinə aid gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması, təkmilləşdirilməsi, inkişafı və normativ hüquqi aktların gender ekspertizasından keçirilməsini nəzərdə tutub.

Gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması, təkmilləşdirilməsi və inkişafı üzrə tədbirlər 2009-cu il referendumu ilə Azərbaycan Respublikası Konstitusiyasının "Bərabərlik hüququ" adlanan 25-ci maddəsinə IV və V hissələr əlavə edilmişdir:

«IV. Heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

V. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir».

2007-ci il 1 oktyabr tarixli "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu ilə xeyli qanunlara əlavələr və dəyişikliklər edilibdir ki, bunların ən əhəmiyyətliləri aşağıdakılardan ibarətdir:

1."Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə aşağıdakı məzmunda beşinci hissə əlavə edilib: "Siyasi partiyalara daxil olmaq kişi və qadınlar üçün eyni şərtlərlə açıq olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır".

2.Azərbaycan Respublikasının Təhsil Qanununun 3-cü maddəsinin 1-ci bəndinə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilib: "Dövlət, mülkiyyət növündən asılı olmayaraq, bütün tədris müəssisələrinə qəbulda, tələbələrin təqaüdlə təmin edilməsində, tədris planının seçilməsində və biliyin qiymətləndirilməsində kişi və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir".

3."Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilib: "Həmkarlar ittifaqlarına daxil olmaq kişi və qadınlar üçün eyni şərtlərlə açıq olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır".

4."Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"-nin 21-1-ci maddəsinə aşağıdakı əlavələr edilib:

1.Maddənin adında "illik məlumatı" sözlərindən sonra "gender bəra-

bərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatı” sözləri əlavə edilib.

2.Maddəyə aşağıdakı məzmunda yeddinci hissə əlavə edilib: “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanı öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məlumat təqdim edir".

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə gender bərabərliyi ilə bağlı aşağıdakı dəyişikliklər və əlavələr edilib:

1.12-ci maddənin birinci hissəsində:

1.2. hissəyə aşağıdakı məzmunda “f” və “g” bəndləri əlavə edilib:

“f) işə qəbul, işdə irəli çəkilmək, peşə hazırlığını artırmaq, yeni ixtisasa yiyələnmək və ixtisasını artırmaq zamanı, işin keyfiyyətini qiymətləndirərkən, işdən azad edərkən cinsindən asılı olmayaraq işçilərə eyni yanaşmaq və bərabər imkanlar yaratmaq;

g) cinsindən asılı olmayaraq eyni işlə məşğul olan işçilərə eyni iş şəraitini yaratmaq, eyni pozuntuya görə işçilərə fərqli intizam tənbehi tədbirini tətbiq etməmək, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq üçün lazımi tədbirlər görmək".

2.50-ci maddənin ikinci hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilib: “Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, yalnız bir cinsin nümayəndəsi üçün müsabiqənin elan edilməsinə yol verilmir”.

6.“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” aşağıdakı məzmunda 8.4- cü və 8.5-ci maddələr əlavə edilib:

8.4. “Qeyri-hökumət təşkilatlarına daxil olmaq kişi və qadınlar üçün eyni şərtlərlə açıq olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır.

8.5. Bu Qanunun 8.4-cü maddəsində göstərilən tələb hər hansı cinsin xüsusi maraqlarının müdafiəsi məqsədilə yaradılan qeyri-hökumət təşkilatlarına şamil edilmir".

7.Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə aşağıdakı məzmunda 60-1-ci maddə əlavə edilib:

“Maddə 60-1. Seksual qısnamaya məruz qalmış işçilərə qarşı təzyiqin göstərilməsi

Seksual qısnamaya görə işə götürəndən və ya rəhbərindən şikayət etmiş işçiyə qarşı təzyiqin göstərilməsinə və ya işçinin təqib olunmasına görə - vəzifəli şəxslər şərti maliyyə vahidinin yetmiş mislindən doxsan mislinədək miqdarda cərimə edilirlər".

8.“Dövlət qulluğu haqqında” 28.2-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilib: “Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna

olmaqla, yalnız bir cinsin nümayəndəsi üçün müsabiqənin elan edilməsinə yol verilmir".

Azərbaycan Respublikasının Ailə Məcəlləsinə 15 noyabr 2011-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə 10.1-ci maddəsində "kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş" sözləri "18 yaş" sözləri ilə əvəz edilib.

Azərbaycan Respublikası 11 may 2010-cu ildə Beynəlxalq Əmək Təşkilatının "Analığın mühafizəsi haqqında" 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılması haqqında" 183 nömrəli Konvensiyasına və "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli Konvensiyasına qoşulub.

2011-ci il15 noyabr tarixdə Cinayət Məcəlləsinə aşağıdakı məzmunda 176-1-ci maddə əlavə edilib: Maddə 176-1. Qadını nikaha daxil olmağa məcbur etmə.

176-1.1. Qadını nikaha daxil olmağa məcbur etmə - iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

176-1.2. Eyni əməllər nikah yaşına çatmayan şıxs barəsində törədildikdə - üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

22 iyun 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib.

25 aprel 2012-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə "Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası" və "Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları" təsdiq edilib.

Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Inzibati Xətalar Məcəlləsinə 158-ci maddə əlavə edilib:

Maddə 158. Məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması.

158.1.Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.

158.2.Məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

158.3.Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım

mərkəzlərinin akkreditasiyadan keçmədən fəaliyyət göstərməsinə görə otuz beş manatdan əlli manatadək məbləğdə cərimə edilir.

Qanunda normativ hüquqi aktların gender ekspertizasından keçirilməsi nəzərdə tutulsa da, daha sonra qəbul olunmuş və üstün qüvvəyə malik Normativ-Hüquqi aktlar haqqında Konsititusiya Qanunda belə ekspertizanı nəzərdə tutan birbaşa müddəa yoxdur. Konstitusiya qanununun 45.1.7. maddəsində "hüquqi, linqvistik, maliyyə və digər zəruri ekspertizaların keçirilməsi" nəzərdə tutulur. Konstitusiya Qanununun qüvvəyə mindiyi (21 dekabr 2010-cu il) vaxtdan hər hansı qanun layihəsinin gender bərabərliyinin təmin olunması nöqteyi-nəzərindən ekspertizasının keçirilməsi halı bəlli deyildir. Konstitusiya Qanununda hüquqi, linqvistik, sui-istifadə amilinin olub-olmamasının məcburi ekspertizasının keçirilməsi nəzərdə tutulsa da, gender və ümumiyyətlə birbaşa və dolayı ayrı-seçkilyə gətirən müddəaların olub olmamasının ekspertizası nəzərdə tutulmur. Belə olan halda Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanunda normativ-hüquqi aktların gender ekspertizası, həmçinin layihələrdə birbaşa və dolayı ayrı-seçkilik hallarına gətirən müddəaların olub-olmamasının məcburi ekspertizası nəzərdə tutulmalıdır. Konstitusiya Qanununun 47-ci maddəsində göstərilir ki, "Azərbaycan Respublikasının qanunvericilik aktları ilə səlahiyyətlər verilmiş digər dövlət orqanının qərarı ilə normativ hüquqi aktın layihəsi başqa ekspertizadan (maliyyə, iqtisadi, ekoloji, kriminoloji və s.) keçirilə bilər [11, s.28]. Beləliklə aşağıdakı nəticələrə gələ bilərik:

1.Ölkədə gender bərabərliyinin təmin edilməsi üzrə siyasətin həyata keçirilməsi üçün zəruri olan institusional əsaslar yaradılmışdır. Gender siyasətinin formalaşdırılması və həyata keçirilməsinə məsul olan AQUPDK - nin mövcudluğu bu sahədə effektiv siyasətin təşkili və həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malikdir. Məişət zorakılığı ilə bağlı Məlumat Bankının və Monitorinq Qruplarının yaradılması gender bərabərliyinin təminatına əhəmiyyətli dərəcədə mənfi təsir göstərən məişət zorakılığına şərait yaradan halların aradan qaldırılması üçün yaxşı strategiyaların hazırlanmasında etibarlı məlumat mənbəyi ola bilər.

2.Bilavasitə gender bərabərliyinin həllinə hədəflənmiş xüsusi dövlət proqramları olmasa da, müxtəlif dövlət proqramlarına gender məsələlərinə aid tədbirlər daxil edilmişdir. Proqramların gender problemlərinin geniş spektrini əhatə etməsi ictimai həyatın ən müxtəlif sahələrində gender bərabərliyinin təmini üzrə müxtəlif xarakterli tədbirlərin - qanunvericiliyin təkmilləşdirilməsi, məlumatlılığın artırılması, institusional əsasların gücləndirilməsi, gender mədəniyyətinin təşviqi, qadınların ictimai həyatda fəallığının artırılması, gender əsaslı diskriminasiyanın tamamilə ləğv edilməsi və s. həyata keçirilməsinə zəmin yaratmışdır.

3.''Gender (kişi və qadınların) bərabərliyinin təmin edilməsi haq-

qında” Qanunun qəbulundan sonra Konstitusiyaya, Ailə Məcəlləsinə, Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə, Əmək Məcəlləsinə və digər qanunlara bir çox əlavələr və dəyişikliklər edilməklə, o cümlədən müvafiq beynəlxalq Konvensiyalara qoşulmaqla qanunvericilik müstəvisində gender bərabərliyinin bir çox problemləri həllini tapmışdır. Həyata keçirilən tədbirlər nəticəsində Əmək Məcəlləsinin 241-ci maddəsi ilə nəzərdə tutulan qadınlara müəyyən sahələrdə əmək fəaliyyətinin qadağan edilməsi istisna olmaqla, qanunvericilikdə başqa əhəmiyyətli mübahisəli məsələ qalmamışdır.

4.AQUPDK öz resursları hesabına, o cümlədən yerli və beynəlxalq təşkilatlarla əməkdaşlıq əsasında əhəmiyyətli sayda təlimlər/seminarlar keçirmək, çap materialları hazırlayaraq aidiyyatı auditoriyaya çatdırmaq, elektron media vasitələri ilə məlumatlandırma kampaniyası aparmaq vəs. kimi üsullardan istifadə etməklə gender mədəniyyətinin təşviqində əhəmiyyətli rol oynamışdır. Bu cür tədbirlər gender bərabərliyi probleminin aid olduğu bütün subyektləri - qadınları, kişiləri, məktəbliləri, tələbələri, hüquq mühafizə orqanları, yerli icra hakimiyyəti və digər aidiyyatı orqanlarların əməkdaşlarını əhatə etmişdir.

5. Qadın əməyinin tətbiqi qadağan olunan peşə və iş yerlərinin əhatə dairəsi qanunvericiliklə dəqiq müəyyən edilib, qadağanın aid edildiyi sahə, peşə və iş yerlərinin siyahısı hər kəs üçün açıq olduğundan bu məsələdə subyektiv mülahizələrə əsaslanaraq qadınların başqa sahələrdə işəgötürmədə diskriminasiyaya məruz qoymaq imkanını aradan qaldırır. AQUPDK-nin fəaliyyətinin səmərəliliyinin və qarşısında duran vəzifələrin effektiv şəkildə həyata keçirilməsini təmin etmək üçün bu qurumun təşkilati və maliyyə bazası gücləndirilməlidir. Komitənin regional bölmələri yaradılmalı, strukturları gücləndirilməli və dövlət büdcəsindən ayrılan vəsaitin miqdarı artırılmalıdır. Bilavasitə Komitənin məsuliyyətində olan İnformasiya Bankının və Monitorinq Qruplarının səmərəliliyinin artırılması üçün Komitə müvafiq tədbirlər görməlidir. Ümumilikdə Komitə üzərinə düşən vəzifələrin icrasında daha məsuliyyətli olmalı və gender bərabərliyinin təmini istiqamətində səylərini gücləndirməlidir.

6. Gender bərabərliyinin təminatının yaxşılaşdırılması üçün xüsusi dövlət proqramına ciddi ehtiyac duyulur. Dövlətin sonuncu dövri Hesabatında 2019-2024-cü illəri əhatə edən Milli Fəaliyyət Planının hazırlanması yaxşı xəbər olsa da, Plan bu günədək qəbul edilməmişdir. Planın hazırlanması prosesində Vətəndaş cəmiyyəti təşkilatlarının (VCT-lər) iştirakı haqqında məlumatlara da rast gəlinmir. Komitə gecikmiş də olsa, Planının ictimai müzakirəsini təşkil etməli və Vətəndaş cəmiyyəti təşkilatları (VCT-lər) prosesə yaxından cəlb etməlidir. Bu Plana VCT-lərin baxışlarının daxil edilməsi, planın təkmilləşdirilməsi və bu tipli sənədlərdə ənənəvi müşahidə

olunan qeyri-konkretliyin aradan qaldırılması üçün də faydalı olardı.

Qadınların idarəetmədə iştirak səviyyəsinin artırılması üçün xüsusi tədbirlərə ehtiyac vardır. Qadınların dövlət orqanlarında əmək fəaliyyətinə marağının və rəhbər vəzifələrdə çəkisinin artırılması üçün stimullaşdırıcı tədbirlər görülməlidir. Bu cür tədbirlər eyni zamanda seçkili orqanları və ictimai sektoru da əhatə etməlidir. Qeyd edilən tədbirlər qadınların qərar qəbuletmədə və ölkənin ictimai-siyasi həyatında iştirakının artırılması nöqteyi-nəzərdən də vacib əhəmiyyətə malikdir.

Məişət zorakılığının qarşısının alınması üzrə tətbiq edilmiş mexanizmlərin işləkliyinin yaxşılaşdırılması və məişət zorakılğına qarşı mübarizənin gücləndirilməsi üçün əlavə tədbirlərə zərurət vardır. Məişət zorakılığının vəziyyətinin qiymətləndirilməsi etibarlı və səhih məlumatlardan asılı olduğundan məlumatların toplanmasına və onların təhlilinə ciddi önəm verilməlidir. Bu istiqamətdə səmərəliliyin təmin edilməsi təkmil monitorinq mexanizminin olmasını tələb edir.

Qadınların rəsmi məşğulluqda iştirakının artırılması, peşə bölgüsündə struktur bərabərsizliyinin aradan qaldırılması üçün tədbirlərə ehtiyac böyükdür. Bütün sahələrdə kişi və qadınların əmək haqqı fərqini azaltmaq və bərabər dəyərli işlərə bərabər əmək haqqı prinsipinin həyata keçirilməsi üçün müvafiq tədbirlər görülməlidir.

Qadın əməyinin tətbiqinə qadağaların qoyulduğu sahələrin siyahısına yenidən baxılmalıdır. Beynəlxalq Əmək Təşkilatının "Əmək və məşğulluq sahəsində ayrı-seckilik haqqında" Konvensiyası (№ 111) cinsi mənsubiyyətə görə əmək və məşğulluqda ayrı-seçkiliyi yolverilməz hesab edir. Bu təşkilata məxsus "Yeraltı işlərdə qadın əməyinin tətbiqi haqqında" 45 saylı Konvensiyadan başqa heç bir beynəlxalq sənəd qadın əməyinə və məşğulluğuna məhdudiyyət müəyyən etmir. Fikrimizcə, qadın əməyinə tətbiq edilən məhdudiyyətlər yuxarıda qeyd edilən Konvensiyaya uygunlaşdırılmalı və yaxud qadağanların dairəsi məhdudlaşdırılmalıdır. Siyahının təsdiq edildiyi zamandan (1999-cu il) sonrakı müddətdə texnologiyaların inkişafında əldə olunan nailiyyətlər qadağan olunan müəyyən sahələrdə qadınların əmək fəaliyyətini mümkün edə bilər.

İctimai məlumatlandırma kampaniyalarının təşkili ehtiyaclara uygun və nəticəyönümlü olmalıdır. Əhəmiyyətli sayda tədbirlərin fonunda nəticələrin qənaətbəxş səviyyədə olmaması tədbirlərin təşkili və həyata keçirilməsinə yenidən baxmağı tələb edir. Demokratik cəmiyyət quruculuğu hər şeydən öncə əsas insan hüquqlarının konstitusion müdafiəsini tələb edir. [12, p.670].

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Konstitusiyası. – Bakı: - 2023.
2. Əliyev Ə.İ. İnsan Hüquqları. – Bakı: Nurlar, - 2019. - 352c
3. http://www.e-qanun.az/framework/ 12582
4. http://www.e-qanun.az/framework/133406 http://e-qanun.gov.az/framework/15399
5. .Pekin Deklarasiyası və Fəaliyyət Platforması. – Bakı: - 2014. - s.120.
6. http://www.e-qanun.az/framework/12861
7. http://e-qanun.gov.az/framework/25029
8. http://e-qanun.gov.az/alpidata/framework/data/16/c_f_16167.htm
9. https://insanalveri.gov.az/?/az/menu/49/
10. Azərbaycan Respublikasının BMT-nin “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyası üzrə 4-cü dövri hesabatı. – Bakı: 2009, - s.6-54
11. «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikası Qanunun Kommentariyası. – Bakı: - 2011.
12. Hüseynova H., Əliyev Ə., Bayramova P., Nuriyev Ə., Səfərov E., Səfixanlı A., Əlibəyli Q. Qadın hüquqlarının müdafiəsi: beynəlxalq və milli aspektlər" dərs vəsaiti. – Bakı: - 2018, - 187 s. (http://scfwca.gov.az/store/media/NewFolder/ Kitab%20Son%20.pdf)
13. Petersmann Ernst-Ulrich. Human Rights, International Economic Law and Consitutional Justice//The European Journal of International Law Vol. 19, no. 4, 2008.


## ЗАКОНОДАТЕЛЬНЫЕ ГАРАНТИИ ГЕНДЕРНОГО РАВЕНСТВА И УСТОЙЧИВОГО РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ


**А.Г.МАМЕДОВ, А.Э.КИБЛАЛИЕВА**


### РЕЗЮМЕ


В статье отмечается, что закон возлагает на государство обязанности по определению политики, связанной с обеспечением гендерного равенства, и принятию соответствующих мер по ее реализации.Принятие государственных программ, направленных на решение проблем гендерного равенства, действительно выражает интерес и волю государства. прогрессировать в этом направлении. Достижение прогресса требует не только принятия таких программ, но и их реализации, мониторинга, адаптации к изменяющейся среде и обновления в соответствии с намеченными целями. В статье указывается, что, к сожалению, из-за отсутствия официальных отчетов, отражающих состояние реализации упомянутых выше Государственных программ, не удалось обоснованно оценить их вклад в обеспечение гендерного равенства. Контроль за обеспечением гендерного равенства осуществляет соответствующий орган исполнительной власти, который ежегодно представляет информацию о своей деятельности в Милли Меджлис Азербайджанской Республики.



**Ключевые слова**: права человека, гендерное равенство, Государственные программы, права и свободы человека и гражданина, женский труд и др.

**LEGISLATIVE GUARANTEES OF GENDER EQUALITY AND SUSTAINABLE DEVELOPMENT IN THE REPUBLIC OF AZERBAIJAN**

**A.G.MAMMADOV, A.E.QIBLALIYEVA**

## SUMMARY

It is mentioned in the article that the law imposes on the state the responsibilities of defining the policy related to ensuring gender equality and taking appropriate measures for its implementation. The adoption of state programs targeting gender equality problems really expresses the interest and will of the state to progress in this direction. Achieving progress requires not only the adoption of such programs, but also their implementation, monitoring, adaptation to the changing environment, and updating in accordance with the intended goals. The article states that, unfortunately, due to the lack of official reports reflecting the state of implementation of the aforementioned State Programs, it was not possible to reasonably assess their contribution to gender equality. The control of ensuring gender equality is carried out by the relevant executive authority. The relevant executive body that supervises the provision of gender equality shall submit an annual report to the Milli Majlis of the Republic of Azerbaijan about its activities.

**Keywords:** human rights, gender equality, State Programs, human and civil rights and freedoms, women's labor, etc.

UOT343.21.7

# AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİNİN 351-Cİ MADDƏSİNİN TƏTBİQİ ZAMANI QARŞIYA ÇIXAN BƏZİ PROBLEMLƏR

**X.R.VƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***h.valiyev@prosecutor.gov.az***

*Cinayət qanunvericiliyinin təkmilləşdirilməsi daimi və sonsuz bir işdir. Bu işin səmərəli şəkildə həyata keçirilməsi üçün rəsmi dövlət orqanları ilə yanaşı, hüquq tədqiqatçılarının da üzərinə böyük vəzifə düşür. Baxmayaraq ki, qüvvədə olan Cinayət Məcəlləsinin əksər müddəaları kifayət qədər təkmildir, bəzən onların arasında əlavə və düzəlişlərə ehtiyacı olan normalara da rast gəlmək olur. Məqalədə maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətinin hərbi xidmət əleyhinə cinayət növü kimi həmin normanın təhlili və onların əsasında boşluqların müəyyən edilməsi və həmin boşluqların aradan qaldırılması, həmçinin qanunvericiliyin bu sahədə mövcud problemlərinin həlli yolları işlənib hazırlanmışdır.*

**Açar sözlər:** hərbi xidmət əleyhinə olan cinayət, qanunvericilik, boşluq, problem, təkmilləşdirmə, təkliflər

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə növbəti dəfə hakimiyyətə gəlişi respublikamızın həyatının bütün istiqamətlərində, eləcə də hüquq sahəsində ciddi dəyişikliklərə səbəb olmuş, dövlətimizin qanunvericilik sistemi fundamental şəkildə dəyişmişdir.

Azərbaycanın demokratik yolla inkişafını qarşısına məqsəd qoyan Ulu Öndər bilirdi ki, bunun üçün öncə mükəmməl hüquqi bazaya ehtiyac var. Elə buna görə də Ümummilli Liderin təşəbbüsü və gərgin fəaliyyəti nəticəsində ümumxalq səsverməsi yolu ilə 12 noyabr 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. Demokratik cəmiyyətin qurulması, fəaliyyəti və inkişafı üçün bütün müddəaları özündə əks etdirən yeni Konstitusiya Azərbaycanda hüquqi dövlətin təməlini qoymaqla yanaşı, hüquqi islahatların sonrakı mərhələsinin aparılmasına da etibarlı zəmin yaratdı.

Konstitusiyada müəyyən edilmiş norma və prinsiplərə uyğun hüquqi sistemin formalaşmasına hədəflənən islahatların ikinci mərhələsi məzmun

baxımından iki istiqaməti əhatə edirdi. Onlardan birincisi, insan hüquq və azadlıqlarının, qanunçuluq və hüquq qaydasının səmərəli müdafiəsi üçün zəruri olan təsisatların, ikincisi isə həmin təsisatların işini effektiv edəcək qanunvericilik bazasının yaradılması idi.

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsində "Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur", 149-cu maddəsində isə " Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır" kimi müddəalar öz əksini tapmışdır.

Yuxarıda göstərilənlərdən aydın olur ki, insan və vətəndaş hüquqlarını və azadlıqlarını qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Qeyd olunan orqanlar müvafiq qanunların qəbul edilməsi, həmin aktların icraya yönəldilməsi və hüquq pozuntuları zamanı təqsirkar şəxsi müəyyən etməklə həmin şəxslərin məsuliyyətə cəlb edilməsinin əsaslarını müəyyən edir.

Cinayət Məcəlləsində əksini tapan normalar ictimai təhlükəliliyi ilə ön plana çıxır ki, bu da həmin qanunvericiliklə digər qanunların arasında ən başlıca fərqdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsində əksini tapan normalar insanların həyat və sağlamlığını, cəmiyyət və dövləti cinayət xarakterli əməllərdən qorumaq məqsədi daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı" təsdiq edilməsi yol hərəkət təhlükəsizliyinin təmin edilməsinin dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biri hesab olunduğunu göstərir.

Sözügedən proqram Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyi səviyyəsinin artırılması vasitəsilə yol-nəqliyyat hadisələrinin sayının və bu hadisələr nəticəsində ölkəyə dəyən sosial-iqtisadi zərərin azaldılması istiqamətində tədbirləri özündə ehtiva edir. Dövlət Proqramının əsas məqsədi yol-nəqliyyat hadisələrinin, xüsusilə də ölümlə və sağlamlığa zərər vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələ-rinin sayının, habelə ölkə iqtisadiyyatına və ekologiyasına dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlərin görülməli olduğu həmin proqramda öz əksini tapmışdır.

Dövlət Proqramının əsas istiqamətləri üzrə tədbirlərdən birini də yol hərəkətinin təhlükəsizliyi sahəsində idarəetmə təşkil edir. Bu tədbir özündə mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi, yol hərəkətinin təhlükəsizliyi sahəsində vahid dövlət siyasətini formalaşdıran və onun həyata keçirilməsini təmin edən, nəzarət və əlaqələndirmə funksiyasını icra edən daimi əsaslarla fəaliyyətin təşkil edilməsini birləşdirir.

Bundan başqa, sözügedən dövlət proqramında yol hərəkətinin təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasının imzalamadığı və ya ratifikasiya etmədiyi beynəlxalq müqavilələrə qoşulması, qoşulduğu beynəlxalq müqavilələrin səmərəli həyata keçirilməsinin təmin edilməsi və bu sahədə zəruri tədbirlər görülməsi ilə yanaşı, həm də mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi də nəzərdə tutulmuşdur.

Müasir dövrdə nəqliyyat vasitələrinin sayının çoxalması, onların yüksək sürətlə və sıx şəkildə hərəkəti sürücülərdən xüsusi diqqət tələb etməklə, həmin nəqliyyat vasitəsinin idarə olunmasını çətinləşdirir. Bu xüsusat həmçinin texnoloji və elektron qurğularla təchiz edilmiş xüsusi hərbi nəqliyyat vasitələrinə də şamil olunur. Nəqliyyat vasitələrinin göstərilən şəraitdə idarə olunması müvafiq yol hərəkəti qaydalarının pozulması və ağır nəticələrə səbəb olma ehtimalını artırır.

Nəqliyyat vasitələrinin sayının artması son dövrlərdə yol nəqliyyat hadisələrinin də sayının artımına əsaslı təsir etmişdir.

Yol-nəqliyyat hadisələrinin, eləcə də yol-nəqliyyat hadisələrində həlak olan və yaralananların son üç ildə artım dinamikası ilə hərəkəti bu sahəyə xüsusi diqqət yetirməyi tələb edir (yol-nəqliyyat hadisələrinin artım dinamikası müvafiq olaraq statistik cədvəldə[1] göstərilmişdir).

| Yol-nəqliyyatı hadisələrinin qeydə alındığı illər | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Yol-nəqliyyatı hadisələrinin sayı | 1.587 | 1.649 | 1.668 |
| Yol- nəqliyyat hadisələrində həlak olanların sayı (nəfər) | 696 | 706 | 834 |
| Yol- nəqliyyat hadisələrində yaralananların sayı (nəfər) | 1.410 | 1.452 | 1.456 |

Göründüyü kimi yol nəqliyyat hadisələrinin artım tempi qanunvericiliyin bu sahədə təkmilləşdirilməsini və müvafiq əmələ hüquqi qiymət verilməsini zəruri edir.

Cinayət Məcəlləsində nəzərdə tutulmuş "Maşınları idarəetmə və istismar qaydalarını pozma" cinayət əməli də bunlardan biridir. Sözügedən norma Cinayət Məcəlləsinin hərbi xidmət əleyhinə olan cinayətlər bölməsində 351-ci maddəsində əksini tapmışdır.

Qeyd olunan maddənin qanunvericilikdə mövcud olması müvafiq nəqliyyat vasitələrinin onların təyinatı üzrə aidiyyəti normalarda müəyyən edilmiş qaydalara uyğun şəkildə qarşıya qoyulmuş tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsi və texniki vasitənin təhlükəsiz istismarının təmin edilməsinə xidmət edir.

---

[1] Cədvəl Azərbaycan Statistik İnformasiya Sistemindən götürülmüşdür. https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do;JSESSIONID=EEBB8560ED5D20F253BE615A949AF3C3#

Nəzərə almaq lazımdır ki, nəqliyyat vasitəsinin idarə edilməsi və istismarı ilə bağlı təhlükəsizlik qaydaları özlüyündə iki yerə bölünür:

1) həmin nəqliyyat vasitəsinin idarə edilməsi və istismarı ilə bağlı təhlükəsizlik qaydaları 2) nəqliyyat vasitəsinin idarə edilməsi və istismarı ilə bağlı olmayan və sadəcə mexanizmlə iş zamanı texniki təhlükəsizlik qaydaları.

Nəqliyyat vasitəsinin idarə edilməsi və istismarı zamanı təhlükəsizlik qaydalarına riayət edilməməsi ilə yol hərəkəti zamanı digər iştirakçıların həyat və sağlamlığına, eləcə də əmlakına zərər vurula bilər.

Hərbi nəqliyyat vasitələrinin idarə edilməsi və istismarı zamanı təhlükəsizlik qaydalarına riayət edilməməsi isə yuxarıda qeyd edilən münasibətlərə zərər vurmaqla yanaşı, həmçinin hərbi tapşırıqların icrasına, şəxsi heyətin həyat və sağlamlığına, hərbi hissələr və bölmələrin maddi-texniki təminatına zərər vurur.

Bu səbəbdən də, qeyd olunan norma xüsusi norma kimi hərbi xidmət əleyhinə cinayətlər fəslində verilmişdir. Sözügedən norma blanket xarakterli norma olduğundan, burada digər normalara istinad olunmaldır. Belə ki, nəqliyyat vasitəsinin idarə edilməsi, həmçinin istismarı qaydaları yol hərəkəti qaydaları ilə, avtomobil xidməti sahəsində, eləcə də nəqliyyat vasitəsinin xüsusiyyəti və texniki vasitələrdən asılı olaraq mövcud müvafiq təlimatlar, göstərişlər və digər normativ hüquqi aktlarla müəyyən edilir.

Bununla yanaşı qeyd olunmalıdır ki, hərbi nəqliyyat vasitələrinin idarə edilməsi və istismarı xüsusi və yolsuzluq şəraitində həyata keçirilə bilər. Bu onların icra etdikləri hərbi tapşırıqlardan, eləcə də bu və ya digər səbəblərdən asılı ola bilər.

Hərbi nəqliyyat vasitələrinin idarə etmə və istismarı qaydalarının pozulması bir çox hallarda insanın həyat və sağlamlığına zərər vurmaqla yanaşı, həm də hərbi xidmətlə bağlı münasibətlərə ziyan vura biləcək nəticələrə səbəb ola bilər ki, bu da özünü hərbi və digər əhəmiyyətli tapşırıqların icrasında müəyyən problemlərin yaranmasına və icrasının mümkünsüz olmasında göstərir.

Bu səbəbdən də, hərbi nəqliyyat vasitəsinin idarə və istismar qaydalarının pozulması əməlində yol hərəkəti qaydaları ilə yanaşı, digər hallar da nəzərdə tutula bilər.

Döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı idarəetmə və istismar qaydalarının pozulması zamanı həmin vasitələrin istismar və idarə etmə qaydalarını müəyyən edən xüsusi normativ hüquqi aktlara baxılması zəruridir. Burada hərbi texnika və vasitənin növündən asılı olaraq onun istifadə qaydalarını müəyyən edən xüsusi normalar mövcuddur. Bunların sırasında "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsi", Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmə-

tinin Hərbi Hissələrinin Nəqliyyat (avtomobil və zirehli texnika) Texnikası ilə Təminatına Dair Təlimat", Müdafiə Nazirliyinin əmrləri ilə təsdiqlənmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrində Avtomobil Texnikası istifadə Qaydaları haqqında Təlimat" və "Silahlı Qüvvələrdə Avtomobil xidməti haqqında Təlimat" və bu kimi digər normativ hüquqi aktları göstərə bilərik.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 351-ci maddəsinin dispozisiyasına nəzər salınsa, burada sadəcə döyüş və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, eləcə də hərbi texnikanın adını görə bilərik.

Buradan aydın olur ki, hərbi qulluqçunun qəza törədərkən idarə etdiyi nəqliyyat vasitəsi hərbi texnika, döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələri deyildirsə, bu zaman həmin şəxs CM-nin 351-ci maddəsi il deyil, CM-nın 263-cü maddəsi ilə məsuliyyətə cəlb olunmalıdır.

Nəzərə alınmalıdır ki, döyüş təyinatlı nəqliyyat vasitəsi dedikdə, tanklar, zirehli transportyorlar, piyadanın döyüş maşınları, artilleriya və digər silahları qoşqu vasitəsilə çəkən vasitələr, dartıcılar və bu kimi digər nəqliyyat vasitələri, xüsusi nəqliyyat vasitələri dedikdə isə, xüsusi tapşırıqların yerinə yetirilməsi üçün özüyeriyən texniki vasitələr və maşınlar, hərbi texnika dedikdə isə, hərbi məqsədlər üçün nəzərdə tutulmuş minik və yük avtomobilləri, traktorlar, yol tikinti və qaldırıcı texnikalar və s. nəzərdə tutulur.

CM-nin 351-ci maddəsi xüsusi norma hesab olunmasına baxmayaraq CM-nin 263-cü maddəsi ilə oxşarlıqları olsa da fərqli cəhətləri də vardır. Həm də, CM-nin 351-ci mad-dəsinin dispozisiyası qeyri-dəqiq və tam müəyyən edilməmişdir. Bu cür hallar CM-nin 351-ci maddəsinin tətbiqində müəyyən problemlər yaratmaqla yanaşı, müvafiq əməlləri törədən şəxslərin məsuliyyətdən kənar qalmasına şərait yaradır və yaxud onların əməllə-rinə qanunauyğun şəkildə düzgün hüquqi qiymət verməsini istisna edir. Fikrimizcə qeyd olunan problemlərin həll edilməsinə və normanın yenidən işlənməsinə ehtiyac vardır.

CM-nin hərbi xidmət əleyhinə olan cinayətlər bölməsində "Maşınları idarəetmə və istismar qaydalarını pozma" cinayət əməlinin nəzərdə tutulması həmin əməlin CM-nin 263-cü maddəsinin dispozisiyasında nəzərdə tutulmuş əməldən fərqləndirici xüsusiyyətlərdən biri də maşınların, yəni döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikasının Silahlı Qüvvələrə və digər hərbi birləşmələrə məxsus olmasıdır[1].

CM-nin 351.1-ci maddəsində göstərilmişdir ki, döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələrini, yaxud hərbi texnikanı idarəetmə və istismar qaydalarının pozulması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az

[1] «Комментарий к уголовному кодексу российской федерации» отв. Ред. А.В.Наумов, Москва, 1996, с. 792

ağır zərər vurduqda məsuliyyətə səbəb olur.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 351-ci maddəsində həmin Məcəllənin 263-cü maddəsində göstərilən nəticələrə səbəb olmaqla bu maddədə nəzərdə tutulmuş cinayətin obyektiv cəhətinə aid olan oxşar əməllərin xüsusi subyektlər (bir qayda olaraq hərbi qulluqçular) tərəfindən döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarəetmə və istismarı qaydalarını pozmaqla törədilməsinə görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Cinayət qanununun bu normasının tələbinə görə, döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarə edən şəxs (hərbi qulluqçu) həmin maşınların idarəetmə, o cümlədən yol hərəkəti və ya onların istismarı qaydalarını pozduqda və bu pozuntular ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin sağlamlığına az ağır, ağır zərər vurulmasına, onun ölümünə, habelə iki və daha çox şəxsin ölümünə səbəb olduqda, təqsirli hesab olunan şəxs CM-nin 351-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilir.

Göründüyü kimi, CM-nin 351-ci maddəsinin obyektini həm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Nizamnamələrində, həm də müxtəlif normativ hüquqi aktlarda, o cümlədən "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş döyüş, xüsusi və ya nəqliyyat maşınlarının idarə edilməsi və istismarı qaydaları təşkil edir.

Qeyd olunan hərbi cinayət CM-nin 263-cü maddəsində nəzərdə tutulmuş cinayətdən yalnız cinayətlərin predmetinə və subyektinə görə fərqlənir.

Nəzərə alınmalıdır ki, döyüş, xüsusi və hərbi maşınları idarəetmə dedikdə hərəkətdə olan maşını bilavasitə idarə etmək prosesi, yəni sürmək başa düşülür. Bu hərəkət nəqliyyat vasitəsinin hərəkətə gətirilməsi ilə başlayır və hərəkətin dayandırılması ilə sonlanır[1].

Döyüş, xüsusi və hərbi maşınların istismarı dedikdə isə, onlardan təyinatına uyğun istifadə etmə və onlara zəruri texniki xidmət göstərmə başa düşülür[2].

İdarəetmə və istismar qaydalarının müxtəlif məna ifadə etmələrini nəzərə alaraq normanın düzgün tətbiq edilməsi üçün bu iki ifadə normada birlikdə deyil, ayrılıqda göstərilməlidir.

Beynəlxalq təcrübəyə nəzər salsaq görərik ki, xarici ölkələrin cinayət məcəllələrində qeyd olunan xüsusat daha aydın verilməklə yanaşı, həmçinin nəqliyyat vasitəsinin idarə edilməsi ilə istismarı bir-birindən ayrı şəkildə tət-

---

[1] "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası" elmi redak. F.Y.Səməndərov, Bakı 2018, s. 1021

[2] Yenə orada.

biq edilməsi öz əksini tapmışdır. Bura biz Rusiya Federasiyasının[1], Ukrayna[2] və Qazaxıstan Respublikalarının[3] Cinayət Məcəllələrini misal göstərə bilərik.

Mövcud qanunvericilikdə idarəetmə və istismar qaydalarının birlikdə göstərilməsi həmin müddəaların düzgün tətbiq edilməməsinə səbəb olmaqla yanaşı, müxtəlif anlam verməsinə baxmayaraq hər iki hərəkətin birlikdə törədilməsi zamanı CM-nin 351-ci maddəsinin dispozisiyasında nəzərdə tutulan əməli xarakterizə edir. Bu səbəbdən də, həmin hərəkətlərdən birinin mövcud olmaması zərər vurduğu obyektdən asılı olmayaraq adıçəkilən müddəa ilə məsuliyyətə səbəb olmur. Bu da, öz növbəsində həmin müddəanın ədalətli tətbiqini istisna etməklə cəzasızlıq mühiti yaradır.

Odur ki, CM-nin 351-ci maddəsində əksini tapan "və" bağlayıcısının "və ya" bağlayıcısı ilə əvəz edilməsi müvafiq maddənin dispozisiyasında əksini tapan əməllərin ayrılıqda tətbiq edilməsinə şərait yaradacaqdır.

Bundan əlavə, döyüş, xüsusi və hərbi maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətlərinə dair işlərin, həmin cinayətlərin törədilməsi hallarının təhlili belə nəticəyə gəlmək üçün əsas verir ki, bəzi hallarda bu cinayətlər həm sərxoş vəziyyətdə olan, həm də döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarə etmək hüququ olmayan şəxs tərəfindən törədilə bilər, digər tərəfdən isə qeyd edilən hərbi cinayəti törətmiş şəxsin müxtəlif səbəblərdən hadisə yerindən qaçması halları da istisna edilmir.

Bununla belə, CM-nin 263-1-ci maddəsinin dispozisiyasına əsasən, şəxs həmin Məcəllənin 263.1-ci maddəsində nəzərdə tutulmuş əməlləri sərxoş vəziyyətdə və ya nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan törətdikdə həmin maddə ilə cinayət məsuliyyətinə cəlb edildiyi halda, eyni şəraitdə 351-ci maddənin təsiri altına düşən xüsusi subyekt tərəfindən törətdiyi əmələ görə məsuliyyət müəyyən edən müvafiq norma cinayət qanun-

---

[1] *Уголовный кодекс Российской Федерации «Статья 350. Нарушение правил вождения или эксплуатации машин. Нарушение правил вождения или эксплуатации боевой, специальной или транспортной машины, повлекшее по неосторожности причинение тяжкого вреда здоровью человека»*
*https://continent-online.com/Document/?doc_id=30397073#pos=4456;-60*

[2] *Уголовный кодекс Украины «Статья 415. Нарушение правил вождения или эксплуатации машин. Нарушение правил вождения или эксплуатации боевой, специальной либо транспортной машины, причинившее потерпевшему средней тяжести либо тяжкие телесные повреждения или гибель потерпевшего»*
*https://online.zakon.kz/Document/?doc_id=30418109&pos=6;-106#pos=6;-106*

[3] *Уголовный Кодекс Республики Казахстан. «Статья 463. Нарушение правил вождения или эксплуатации машин. Нарушение правил вождения или* эксплуатации боевой, специальной или транспортной машины, повлекшее по неосторожности причинение средней тяжести вреда здоровью человека»
*https://online.zakon.kz/Document/?doc_id=31575252&pos=5;-106#pos=5;-106*

vericiliyində mövcud deyil.

Göründüyü kimi, Məcəllənin 351-ci maddəsinin hazırki redaksiyası bu kimi hallarda, yəni sərxoş vəziyyətdə olan və ya döyüş, xüsusi və ya nəqliyyat maşınlarını idarə etmək hüququ olmayan şəxs tərəfindən törədilməsi zamanı, həmin şəxsin CM-nin 351-ci maddəsi ilə məsuliyyətə cəlb edilməsinə imkan vermir.

Digər tərəfdən, CM-nin 264-cü maddəsinin tələbinə görə, şəxsin bu maddə ilə məsuliyyəti o vaxt yaranır ki, o, CM-nin 263 və ya 263-1-ci maddələri ilə nəzərdə tutulmuş cinayəti törətdikdən sonra hadisə yerindən qaçmış olsun. Buna baxmayaraq CM-nin 351-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş şəxs isə hadisə yerindən qaçdıqda o, bu əməlinə görə hazırda qüvvədə olan CM-nin tələbinə görə heç bir məsuliyyət daşımır.

Bundan əlavə, Döyüş və ya xüsusi təyinatlı nəqliyyat vasitələri, yaxud hərbi texnika nasaz vəziyyətdə istismara buraxıldıqda və ya idarəetməyə verildikdə, cavabdeh tərəfindən müvafiq qaydaların düzgün icra edilməməsi nəticəsində döyüş tapşırıqlarının icra olunmaması və ya tələb olunan səviyyədə yerinə yetirilməməsi, eləcə də digər ağır nəticələr, yəni şəxsi heyət üzvlərinin ağır xəsarət almaları və ya ölmələri və sair hadisələr baş verə bilər ki, qanunvericilikdə müvafiq normanın əks olunmaması bu qəbildən olan əməllərə düzgün hüquqi qiymət verilməməsinə səbəb olacaqdır. Bu xüsusat şəxsin məsuliyyətdən kənar qalmasına şərait yaratmaqla qanunvericiliyin ədalətsizliyinə gətirib çıxaracaqdır.

Bu səbəbdən də, hesab edirik ki, qeyd olunan xüsusatın da, həmin normada öz əksini tapması məqsədəmüvafiqdir.

Göründüyü kimi, qanunvericiliyin bu sahədəki boşluqları, həmin normanın düzgün tətbiq edilməməsinə və təqsirkarın qanunla müəyyən olunmuş məsuliyyətdən kənar qalmasına şərait yaradır.

Bundan əlavə, nəzərə alınmalıdır ki, 263-1-ci maddə yəni, "Yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma" cinayət əməli faktiki olaraq ayrılıqda deyil, həmin Məcəllənin 263-cü maddəsində nəzərdə tutulmuş əməllə əlaqəli şəkildə tətbiq edilir.

Fikrimizcə normanın CM-də bu cür əks olunması müvafiq normaların lüzumsuz yerə çoxluğuna şərait yaratmaqla normativ hüquqi aktın tərtib edilməsi üslubuna ziddir.

Bununla yanaşı, CM-nin 263-1-ci maddəsinin həmin Məcəllənin 263-cü maddəsinin tövsifedici, yəni ağırlaşdırıcı əlamət kimi çıxış etməsini nəzərə alaraq həmin normaların ayrılıqda deyil, bir maddə altında verilməsi, yəni 263-1-ci maddə ilə 263-cü maddənin birləşdirilməsi məqsədəmüvafiq hesab olunur.

Bir daha qeyd etməliyik ki, normativ hüquqi aktlar hüquqa və haqq-

ədalətə əsaslanmalıdır. Ədalət mühakiməsinin həyata keçirilməsinin və bərabər balansın müəyyən edilməsi üçün fundamental prinsip ədalətlilikdir[1]. Bu müddəalar Azərbaycan Respublikası Konstitusiyasının 149.1-ci maddəsində əksini tapmaqla digər normativ hüquqi aktlar üçün rəhbər tutulur.

Bundan əlavə, qanunvericilikdə müvafiq boşluqların olması əməlin düzgün tövsif edilməməsinə, normaların dəqiq tətbiq edilməməsinə səbəb olmaqla, hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amili hesab olunur ki, bu da "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 62 və 65-ci maddələrinin tələblərinə zidd hesab olunur.

Odur ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 351-ci maddəsində olan boşluqların aradan qaldırılması üçün həmin normaya müvafiq dəyişikliklər edilməsi, həmçinin əməli sərxoş vəziyyətdə və ya nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan törətdikdə təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb olunmasını, eləcə də 351-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətmiş şəxsin hadisə yerindən qaçması ilə bağlı məsuliyyət müəyyən edən müddəaların Cinayət Məcəlləsinə əlavə edilməsi məqsədəuyğun hesab olunur.

Yuxarıda göstərilənlərin nəzərə alınaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 351-ci maddəsinin yeni redaksiyada verilməsini, həmçinin yeni məzmunda 351-1-ci maddənin əlavə olunmasını təklif edirik.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası. II hissə / red. F.Y.Səməndərov. - Bakı: Hüquq Yayın evi, - 2018, - 799 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi Bakı: Hüquq yayın evi, 2023, 908 s.
3. Azərbaycan statistik informasiya sisteminin məlumatı.(https://www.azstat.org/ portal/ tblInfo/TblInfoList.do;JSESSIONID=EEBB8560ED5D20F253BE615A949AF3C3#)
4. AFFAIRE BODDAERT c. BELGIQUE» (Boddaert Belçikaya qarşı). https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57768%22]}
5. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş təkrar nəşr. - Bakı: Hüquq yayın evi, - 2018, - 724 s.
6. Hüquq Nəzəriyyəsi. F.Mehdiyev, E.Quliyev. - Bakı: - 2018, - 430 s.
7. Комментарий к уголовному кодексу Российской Федерации» отв. Ред. А.В.Наумов. – Москва: Юрист, - 1996, - 824 s.
8. Научно-практический Комментарий УПК РСФСР. отв. Ред. Б.С.Никифиров. – Москва: - 1970, - 674 s.
9. Иванов Н. Г. Уголовное право. Общая часть в 2 т. Том 1: учебник для вузов / Н.Г.Иванов. — 3-е изд., перераб. и доп. — Москва: Юрайт, 2020. — 275 с. — (Высшее образование). — ISBN 978-5-534-01683-3.


[1] «AFFAIRE BODDAERT c. BELGIQUE» ("Boddaert Belçikaya qarşı" Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarı) https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57768%22]}

10. Рагимов И.М. Философия преступления и наказания. - Санкт-Петербург: Юридический центр Пресс, 2013. — 290 с. — ISBN 978-5-94201-668-5 ...
11. Уголовный кодекс Российской Федерации. (https://continent-online.com/ Document /?doc_id=30397073#pos=4456;-60)
12. Уголовный кодекс Украины (https://online.zakon.kz/ Document /?doc_id=30418109&pos=6;-106#pos=6;-106)
13. Уголовный Кодекс Республики Казахстан. (https://online.zakon.kz/ Document/?doc_id=31575252&pos=5;-106#pos=5;-106)
14. Эминов В.Е., Мацкевич И.М. Преступность военнослужащих (исторический, криминологический, социально-правовой анализ). Монография. – Москва: - 1999, - 260 с

## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ ПРИ ПРИМЕНЕНИИ СТАТЬИ 351.1 УГОЛОВНОГО КОДЕКСА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Х.Р.ВЕЛИЕВ**

### РЕЗЮМЕ

Дело по совершенствованию уголовного законодательства характеризируется регулярностью и неисчерпаемостью. Для оптимального проведения данного дела ответственны как официальные органы власти, так и научные исследователи. Несмотря на то, что действующий Уголовный Кодекс имеет обширный круг усовершенствованных норм, некоторые его статьи нуждаются в дополнениях и изменениях. В статье на основе анализа нормы, связанной с преступлением по нарушению правил вождения и эксплуатации транспортных средств, как одного из видов преступлений против воинской службы, выявлены пробелы, а также разработаны пути устранения этих пробелов и решения других существующих проблем законодательства в этой сфере.

**Ключевые слова:** преступления против воинской службы, законодательство, пробел, проблема, усовершенствование, предложения.

## SOME PROBLEMS ENCOUNTERED DURING THE IMPLEMENTATION OF ARTICLE 351 OF THE CRIMINAL CODE OF THE REPUBLIC OF AZERBAIJAN

**Kh.R.VALIYEV**

### SUMMARY

Improvement of the criminal legislation is a job of regularity and inexhaustibility. For effective implementation of this task along with the officials state authorities also legal researchers bear responsibility. Although most of the provisions of the current Criminal Code are sufficiently developed, but sometimes are found that some norms needs additions and amendments. For example, violating the rules of driving and operating cars as a crime against military service, analysis of that norm and identifying gaps based on analysis, and arranging the same gaps as well as legislation has drafted ways to solve existing problems in this field.

**Keywords*:*** criminal procedure, legislation, gaps, problems, improvement, offers.

**UOT 342.7**

# TİBB HÜQUQUNUN SAHƏVİ-İNSTİTUT STRUKTURUNDA İNSAN HÜQUQLARI: KONSTİTUSİYA VƏ BEYNƏLXALQ HÜQUQİ TƏMİNAT

**P.F.İSMAYILOVA**
***Bakı Dövlət Universiteti***
***parvina444@gmail.com***

*Məqalədə tibb hüququnun ayrı-ayrı institutlarının "əsas hüquqlar" kateqoriyasında konstitusiya qaydası ilə təminat altına alınmasının əhəmiyyəti qeyd edilir. Tibb hüquqlarının tənzimlənməsində "əsas hüquqlar" Konstitusiyanın ümumi qaydasını formalaşdırmaqla diqqətə gətirilir. Bu hüquqlar bir tərəfdən insan hüquq və azadlıqlarına münasibətdə dövlətin öhdəlik, vəzifə funksiyasının istiqamətini müəyyən edirsə, digər tərəfdən fərdlərin beynəlxalq hüquq təsisatlarına müraciəti üçün qanunvericilik əsaslarının formalaşdırılmasını tələb edir.*

**Açar sözlər:** sağlamlıq hüququ, qanunvericilik, "fundamental" hüquqlar, beynəlxalq hüquq, konstitusiya hüququ, ÜST

Tibb hüququnun tənzimetmə predmeti kimi, tibb və səhiyyə sahəsindəki fəaliyyətlə bağlı yaranan ictimai münasibətlər çıxış edir. Tibb və səhiyyə sahəsindəki fəaliyyət isə kompleks sistemi ehtiva etməklə tibbi yardım, tibbi yardımın keyfiyyətinə nəzarət, sağlamlığın mühafizəsi məqsədilə diaqnoz, müalicə və önləyici tədbirlər olaraq başa düşülür. Bu mənada tibb hüququnun sistemində sağlamlıq və tibbi yardım almaq üzrə keyfiyyətcə eynicinsli münasibətlərin hüquqi tənzimlənməsini təmin edən institutlar, normalar çıxış edir. Hüquq institutu dedikdə, hüquq sahəsinin daxili strukturunu formalaşdıran və öz aralarında müəyyən əlaqəyə malik olan komponent başa düşülür [1]. Hüququn institutları, həmçinin sahəvi struktur meyarı kimi çıxış edirlər [2].

Tibb hüququnun institutu kimi sağlamlıq hüququ, tibbi (müalicə-profilaktik və dərman təminatı) yardım hüququ, pasiyent hüququ, həkim sirri, həkim səhvinə görə məsuliyyət, biotibbi tədqiqatlar, gen mühəndisliyi, transplantasiya, reproduktiv texnologiyalar, pullu tibbi xidmət, sağlam ətraf mühitdə yaşamaq, sanitariya-epidemioloji nəzarət, bioetika və s. qeyd edilə

bilər. Tibb hüququnun institutlarının dairəsini sahənin kompleks xarakterini daha qabarıq formada göstərən sahələrarası institutlarla da genişləndirmək olar. Belə institutlardan həkim səhvinə görə məsuliyyət, orqan donorluğu, tibbi sığorta, tibb fəaliyyətinin lisenziyalaşdırılması, tibbi təhsil, tibb personalının əmək münasibətlərinin tənzimlənməsi və s. qeyd edilə bilər. Bu sahələrarası institutlar tibb hüququnun geniş və spesifik tənzimetmə predmetinə, həmçinin fərqli tənzimetmə metodlarının məcmusuna malik olduğunu göstərir. Qeyd edilənlərdən sağlamlıq və tibbi yardım hüququ özünün məzmununa görə daha ümuməhatəli təminatlandırmaya məruz qalan institutlardan biri kimi qiymətləndirilə bilər.

Bir çox ölkələrdə sağlamlığın qorunması, tibbi yardım və s. hüquqlar konstitusiya səviyyəsində təminatlandırmaya malikdir [3]. Əsas Qanunla təminatlandırma mexanizmi insan və vətəndaş hüquqları və azadlıqlarına xüsusi konstitusiya statusu verir, onların pozulması halında bütün yol verilən üsullarla dövlətin onları təmin etmək öhdəliyini müəyyən edir [4]. Azərbaycan Respublikasının Konstitusiyasında tibb hüququnun fərqli institutları "əsas hüquqlar", "təbii hüquqlar" kimi anlayışlarla ifadə edilib. Konstitusiyanın II bölməsi və III fəsli əsas hüquqlarla başlayır. Azərbaycan Respublikası Konstitusiyasının təbii hüquqlar konsepsiyası isə 24-cü maddənin II hissəsində (...toxunulmaz, pozulmaz və ayrılmaz hüquqlar...) öz ifadəsini tapıb.

Əsas hüquqlar anlayışı öz başlanğıcını BMT Nizamnaməsinin preambulasından (əsas insan hüquqlarına inamı təsdiqləyərək...) götürür. Lakin daha öncə XIX əsrin ortalarından başlayaraq "fundamental" hüquqlar kimi bir sıra dövlətlərin qanunvericiliyində yer alıb. Müasir dövrdə də bir növ insan və vətəndaşın hüquqi statusunu təmin etmək üçün əsas qanunlarda da təsbit edilir. İnsan hüquq və azadlıqlarının müdafiəsinin aktuallaşması və dövlətlərin yurisdiksiyasından kənara çıxmaqla onların beynəlxalq səviyyədə universal beynəlxalq standartlar qismində təsis edilməsi zərurəti yarandı [5]. Bu hüquqların xarakterik xüsusiyyəti onların təməl və ya fundamental istiqaməti və müdafiəsinin beynəlxalq səviyyədə də həyata keçirilməsidir. Əsas hüquqlar institutu beynəlxalq hüquqda "insan hüquqları üzrə beynəlxalq Bill" anlayışını meydana gətirmiş və uyğun olaraq dövlətlər üçün onların təmini üzrə öhdəlik formalaşdırılmışdır.

Çoxtərəfli beynəlxalq müqavilə kimi, ilk dəfə BMT Nizamnaməsi ilə daha sonra İnsan hüquqlarının ümumi Bəyannaməsi, 1966-cı il beynəlxalq Paktlar və s. ilə bu hüquqlar beynəlxalq hüquq çərçivəsində ümumtanınmış və ümumməcburi xüsusiyyətə gətirilmişdir. Əsas hüquqlar əslində təbii hüquqlardır. Yalnız beynəlxalq birlik tərəfindən təminat altına alınmış və ayrı-ayrı ölkələrin də konstitusiyasında təminatlandırılan ümumtanınmış və ümumməcburi hüquqlardır. Əsas hüquqlar kimi sağlamlıq və tibbi yardım

hüququ da özünəməxsus dövlətdaxili pozitiv- hüquqi formalizmə tabe edilməklə əlavə dövlət təminatı alır.

Sağlamlığın qorunması hüququ, şəxsi toxunulmazlıq hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququnun konstitusiya səviyyəsində tanınmasında Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 1948-ci il aprelin 7-də qüvvəyə minmiş və eyni zamanda konstitusiya kimi adlandırılan Nizamnaməsinin da əhəmiyyətli rolu olmuşdur.

ÜST-ün Nizamnaməsində (Konstitusiyasında) "...ən yüksək sağlamlığa nail olmaq" (m.1) əsas məqsəd kimi ifadə edilməklə üzv dövlətlər üçün qanunvericilik prioritetini də müəyyən etmişdir. Nizamnamə funksiyalarına görə: tibbi gigiyenik xarakterli profilaktik istiqamət; sağlamlıq sahəsində tədqiqatlar aparmaq; epidemioloji və statistik xidmət qurumlarına rəhbərlik və təşkilatlandırma; ərzaq, bioloji, əczaçılıq və analoji məhsullar üçün beynəlxalq standartları hazırlamaq, inkişaf etdirmək və dövriyyəyə daxil etmək; iştirakçı dövlətlərin hökumətlərinin razılığı ilə onlara səhiyyənin gücləndirilməsi sahəsində köməklik göstərmək; zəruri hallarda iştirakçı dövlətlərin hökumətlərinin razılığı və ya istəyi ilə onlara texniki köməklik göstərmək; epidemioloji, endemik və digər xəstəliklərlə mübarizəni təşviq etmək və s. nəzərdə tutulur (m.2). Üzv dövlətlər üçün geniş spektrli (qeyd edilən maddədə tibb hüququnun institutları kimi də qiymətləndirilə biləcək ÜST-ün 22 funksiyası ifadə edilib) qanunvericilik öhdəliyinin ifadə edilməsi sağlamlıq hüququnun əhəmiyyətini göstərməklə yanaşı onun konstitusion təsbitini də təşviq etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasında sağlamlığın qorunması hüququ (m.41), sağlam ətraf mühitdə yaşamaq hüququ (m.39) və əlaqəli hüquqların "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan III Fəsildə verilməsi ilə bu hüquqların təbiəti göstərilir. Azərbaycan Respublikası Konstitusiyasının III Fəslində ifadə edilən hüquq və azadlıqların xüsusiyyətləri Konstitusiyanın 12, 24.II, 71 və 147-ci maddələrinə uyğun təfsir və tətbiq edilməlidir. Azərbaycan Respublikası Konstitusiyasında III Fəsildə ifadə edilən "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" dövlətin təşkilati, iqtisadi-sosial və xüsusi hüquq siyasətini təşkil edir. Bu prioritet Konstitusiyanın 12-ci maddəsi ilə müəyyən edilib. Azərbaycan Respublikası Konstitusiyasında "İnsan, vətəndaş hüquq və azadlıqlarına hörmətin dövlətin ali məqsədi" (m.12.I) [6] kimi ifadə edilməsi yaşamaq hüququ (m.27), azadlıq hüququ (m.28), şəxsi toxunulmazlıq hüququ (m.32), şərəf və ləyaqətin müdafiəsi hüququ (m.46) ilə bərabər sağlam ətraf mühitdə yaşamaq hüququ (m.39), sağlamlığın qorunması hüququ (m.41) [6] və s. hüquqlar siyasi təminat altına alınmış olur. Siyasi təminat dedikdə, müvafiq hüquqların realizəsinin vasitə və üsullarının həyata keçirilməsi başa düşülür.

Konstitusiya norması vasitəsilə tibb qanunvericiliyi sağlamlığın

əsasında dayanan insanın yaşamaq hüququnun ayrılmaz təminatçısı kimi çıxış edir. Konstitusiya normasının hüquqi əhəmiyyəti Konstitusiyanın 147-ci maddəsində Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında "ən yüksək", "birbaşa" hüquqi qüvvəyə malik olması və "qanunvericilik sisteminin əsasını təşkil etməsi"ndədir. Hər hansı reqlamentləşdirmə yalnız Konstitusiyanın müəyyən etdiyi təminat prinsipləri formasında həyata keçirilə bilər.

Konstitusiya normaları ilə təsbit edilən bir sıra hüquqlar nisbidirsə, digərləri mütləq hüquqlar kimi pozitivləşdirilir. Azadlıq hüququ (m.28), sağlam ətraf mühitdə yaşamaq hüququ (m.39), sağlamlığın qorunması hüququ (m.41), tibbi yardım hüququ nisbi hüquqlar kimi dəyərləndirilə bilər, lakin insan hər hansı müdaxilədən, o cümlədən istənilən biotibbi müdaxilədən qorunmaq üzrə təhlükəsiz yaşamaq hüququ (m.31), şərəf və ləyaqətin müdafiəsi hüququ (m.46) [6] mütləq xarakterə malikdir. Bu hüquqların mütləq xarakteri onda ifadə edilir ki, onlar insandan ayrılmaz olub, hər hansı məhdudlaşdırmaya da məruz qoyula bilməz. Hüquqi, demokratik dövlətdə onların fəaliyyətinin hər hansı səbəblə dayandırılması yol verilməzdir.

Azərbaycan Respublikası Konstitusiyasının III Fəslinin Konstitusiyanın 24-cü maddəsindəki məzmunla ("təbii hüquqlar" konsepsiyası ilə) başlaması təsadüfi məsələ deyil. Konstitusiyanın 24-cü maddəsinin II hissəsinə (hər kəs üçün doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır) [6] uyğun olaraq "qanundan daha yüksək hüquq var – təbii hüquq, ilahi hüquq, qanun üstü hüquq...bu zaman ədalət haqqında olan – hüququn məqsədindən, hüququn mənasından, dəyərindən, doğru olan hüquqdan söhbət gedir" [7].

Tibb hüququnun ifadə etdiyimiz institutları da məhz qanun üstü dəyərə malikdir. Bu anlamda onların bir qismi şəxsi hüquqlar kateqoriyasına, birinci nəsil hüquqlara aid edilməklə dövlətlər üçün istisnasız, fasiləsiz öhdəlik yaradır. Azərbaycan Respublikası Konstitusiyasında (m.46.III) təsbit edilən "...özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz" (7) müddəası dövlətlər üçün istisnasız, fasiləsiz və dərhal öhdəlik yaradan hüququ ehtiva edir. Bu kateqoriya hüquqları ehtiva edən Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Paktın 2-ci maddəsini təhlil edərkən L. Hüseynov qeyd edir ki, müvafiq hüquqlara hörmət etmək və onları gözləmək dərhal öhdəliklərə aiddir [8].

Təhlükəsiz yaşamaq hüququnu (m.31) şərh edərkən L. Hüseynov qeyd edir ki, Azərbaycan Respublikasının ratifikasiya etdiyi müvafiq beynəlxalq sazişlərində bu hüququn analoqu yoxdur [9]. Görünən odur ki, bu hüququ konstitusiya səviyyəsində təminatlandıran ilk ölkələr sırasında olmuşuq. Təhlükəsiz yaşamaq hüququ (m.31) da Azərbaycan Respublikası Konstitusiyasının üstün məziyyətlərindəndir. L.Hüseynov qeyd edir ki, Konstitusiyada

ifadə edilən (...qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına..., ona qarşı zor işlətmək qadağandır) norma da insan hüquqları üzrə beynəlxalq kataloqda yoxdur. Ehtimal ki, Konstitusiyasının mətninin müəllifləri onu İnsan hüquqlarının ümumi Bəyannaməsinin 3-cü maddəsindən (hər kəsin yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ vardır) götürüblər [9]. Müəllif fikrinə davam edərək qeyd edir ki, İnsan hüquqlarının ümumi Bəyannaməsinin 3-cü maddəsindəki məzmun insan hüquqları üzrə digər beynəlxalq aktlar üçün də xarakterik olmaqla şəxsin qanunsuz və özbaşına saxlanılmasına və həbsinə qarşıdır, İnsan Hüquqları üzrə Komitənin, və AİHM-in qərarları da bu istiqamətdə təfsirə malikdir [9]. Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddəsi isə daha geniş məzmuna malikdir. Bu norma dövlətin üzərinə həm neqativ, həm də pozitiv öhdəliklər qoyur ki, onun genişləndirici təfsiri zamanı məhkəmə müdafiəsində bir sıra praktik problemlər yaratması da istisna deyil. Xüsusilə də həmin hüququn, məsələn, cəmiyyətdə tam təhlükəsiz yaşamaq problemi ilə bağlı olması dövlət üçün həlli asan olmayan hüquq problemidir.

Tibb hüququ ilə əlaqəli olan "üçüncü nəsil hüquqlar" kimi əhəmiyyət kəsb edən və tənqidi yanaşmaya məruz qalan hüquqlardan biri də sağlam ətraf mühitdə yaşamaq hüququdur. Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilən Sağlam ətraf mühitdə yaşamaq hüququnu (m.39) təhlil edərkən L. Hüseynov fərdin subyektiv tələbi kimi dövlətə qarşı onun qeyri-ədliyyəlilik (non-justiciability) xüsusiyyəti səbəbindən irəli sürülməsindəki problemə diqqət çəkir. Sağlam ətraf mühitdə yaşamaq hüququnun qeyri-müəyyən anlayışı ilə əlaqədar olaraq beynəlxalq hüquq aktlarında (İnsan hüquqları və xalqların Afrika Xartiyasında yalnız xalq üçün nəzərdə tutulmaqla (m.24)) da fərdi hüquq kimi təsbit edilməyib. Bu hüququn məzmunu ətraf mühitə aid məlumat almaq hüququnun realizəsi ilə əlaqəlidir [10].

Ətraf mühitə aid məsələlər üzrə ədalət mühakiməsinə çıxış və qərarların qəbulu prosesində ictimaiyyətin iştirakı, informasiyaya çıxış haqqında Orxus (1979) Konvensiyasında da əsasən ətraf mühitin vəziyyəti haqqında məlumat hüququ ifadə edilir (m.4; 9) [11]. Tibbi hüquq kimi sağlamlığın mühafizəsi mühüm əhəmiyyətə malikdir. Orxus (1979) Konvensiyasında ətraf mühitin vəziyyəti haqqında məlumatlandırmaq vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasında fərd üçün subyektiv hüquq kimi nəzərdə tutulub. Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsinin II hissəsində qeyd edilir ki, hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır [6]. Hər kəsin ətraf mühit və sağlamlıqları barədə tam və dolğun məlumat almaq tibb hüququnun yeni institutlarından sayılmalıdır. Orxus (1979) Konvensiyasında

ətraf mühitin vəziyyəti haqqında məlumatlandırmaq vəzifəsinə uyğun olaraq həyat və sağlamlıq üçün təhlükə törədən məlumatları gizlədən istənilən vəzifəli şəxslər qanunla məsuliyyət daşıyırlar (m.41.III) [6]. Konstitusiyanın 39-cu maddəsinin II hissəsində ifadə edilən "sağlamlığa və əmlaka vurulmuş zərərin əvəzini almaq hüququ"nun yalnız ekoloji hüquqpozma ilə əlaqələndirmək doğru deyil. Sağlam ətraf mühitdə yaşamaq hüququ qanunauyğun ekoloji fəaliyyətdən dəymiş zərəri də ehtiva etməlidir. Beynəlxalq hüquq normaları ilə qadağan edilməyən fəaliyyətin nəticəsində vurulan zərərə görə beynəlxalq məsuliyyət rejimi fəaliyyətdədir [12]. Bu rejim konstitusiya norması üçün də qəbul edilə bilər.

Ətraf mühitin transsərhəd xarakteri bu hüququn təminatını çətinləşdirdiyi üçün biz də ətraf mühit hüququna münasibətdə L.Hüseynovun yaşamaq və ya sağlamlıq hüququnun genişləndirici təfsirindən çıxış edilməsi üzrə mövqeyini [13] doğru hesab edirik.

Azərbaycan Respublikasının Konstitusiyasında ifadə edilən tibb hüququnun müxtəlif elementləri üzrə insan hüquq və azadlıqları kataloqu Konstitusiyasının 71-ci maddəsində təsbit edilən dövlət yanaşması ilə təminatlandırılıb. Azərbaycan Respublikası Konstitusiyasında bəyan edilən hər kəs üçün doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqlar (m.24.II) [6], Konstitusiyasının 71-ci maddəsinin V hissəsinə görə, bu hüquqların ləğvinə səbəb olacaq məhdudlaşdırıcı qaydada təfsirinə yol verilməməsi, həmçinin bu hüquqların birbaşa qüvvədə olması qaydası xüsusi dövlət yanaşmasının nəticəsidir. Bu hüquqlar hakimiyyətin bütün qolları ilə, ilk öncə - məhkəmə hakimiyyəti ilə şərtsiz və hərtərəfli müdafiəyə bağlanır [4]. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin I hissəsində deyilir ki, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur [6]. Bu nə anlama gəlir? Azərbaycan Respublikasının qanunvericilik orqanı özünün hüquq yaradıcılığında ifadə edilən hüquqların "əsas hüquqlar" kimi, həm də "təbii hüquq" xüsusiyyətində olmasını nəzərə almalıdır. Qəbul edilən aktlar əsas hüquqların təbii hüquq məzmununu təhrif edəcək istiqamətdə ola bilməz.

Qeyd edilən xüsusiyyətlər məhkəmələrdə üçpilləli müdafiə ilə təminatlandırmanı ehtiva edir. Eyni zamanda qanunvericiliyə (AR Cinayət Məcəlləsi m.122.11; AR Mülki Məcəlləsi m.16) uyğun olaraq dövlətdaxili müdafiə mexanizmləri bitirildikdən sonra beynəlxalq hüquq müdafiə mexanizmlərinə, o cümlədən məhkəmə, kvaziməhkəmə orqanlarına müraciət və bu səviyyədə hüquqların müdafiəsini nəzərdə tutur.

Azərbaycan Respublikasının Konstitusiyasındakı tibb hüququ üzrə insan hüquq və azadlıqları kataloqu onun ratifikasiya etdiyi beynəlxalq sazişlərlə də dövlətin öhdəliyi səviyyəsinə gətirilir. Azərbaycan Respublikası

Konstitusiyası tibb fəaliyyətinin, hüquqların tənzimlənməsi üzrə beynəlxalq müqavilə normalarının daxili qanunvericilik sistemində yerini və realizəsinin əsaslarını da müəyyən edib. Azərbaycan Respublikası Konstitusiyasında tərəfdar çıxılan beynəlxalq müqavilələr qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olaraq ifadə edilib (m.148.II) [6]. Azərbaycan Respublikası Konstitusiyasının müəyyən etdiyi insan və vətəndaş hüquq və azadlıqların müdafiəsinin əsas məqsəd kimi dövlətin prioriteti (m.12) tibb hüquqları üzrə beynəlxalq müqavilələri də nəzərdə tutur. Konstitusiyasının 12.II (Bu Konstitusiyasında sadalanan insan və vətəndaş hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir) [6] maddəsi dövlətdaxili hüquqi təminat sistemini beynəlxalq (hüquq) müqavilə sistemi ilə genişləndirir. Azərbaycan Respublikası hüquq tətbiqetmə prosesində Konstitusiyasının 12.I maddəsini (ümumi qaydanı) nəzərə alaraq tibb hüquqları sferasında fəaliyyətin tənzimlənməsini həyata keçirir.

Konstitusiyada sadalanan insan və vətəndaş hüquq və azadlıqlarının təminatı ilə beynəlxalq müqavilələr arasında ziddiyyət halı da Konstitusiyanın 151-ci maddəsində ifadə edilən qaydada Konstitusiyanın ümumi qaydasını (Konstitusiyasının 12.I maddəsinin məzmununa uyğun olaraq ...layiqli həyat səviyyəsinin ünsürlərindən biri kimi keyfiyyətli tibbi yardım, sağlamlıq-səhiyyə xidmətlərini) gözləmək şərtilə təmin edilməlidir. Konstitusiyanın 151-ci maddəsində ifadə edilən Konstitusiyanın ümumi qaydası ilə Konstitusiyasının 12.II maddəsinin qarşılıqlı əlaqəsinə qiymət verərkən L. Hüseynov qeyd edir ki, Konstitusiyanın 12.II maddəsinin hökmünə xüsusi norma qismində, Konstitusiyanın 12.I maddəsinin ruhunda yanaşılmalıdır [14].

Konstitusiyanın 12.I maddəsi ümumi qaydanın (Konstitusiyada sadalanan insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsində) biləkdən prioriteti Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə verməsi dövlətin hüquqi əsasları (m.7.1) ilə də əlaqələndirilə bilər. Ümumiyyətlə, Konstitusiyanın 12.II maddəsində ifadə edilən yalnız o beynəlxalq müqavilələrdən söhbət gedir ki, onlara: 1) tərəfdar çıxılıb; 2) normaları "əsas hüquqlara" aiddir. "Əsas hüquqlara", universal əxlaqa aid olmayan Konstitusiyanın ümumi qaydasına zidd gələn (məsələn, Avropa şurasının Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə üzrə 2011-ci il İstanbul Konvensiyasının (doğru olaraq Azərbaycan Respublikası Konvensiyanın iştirakçısı deyil) bir sıra normalarının (məsələn, m.3) [15]) beynəlxalq müqavilələrin prioriteti Konstitusiyanın 151-ci maddəsinə nisbətdə qəbul edilə bilməz. Tibb hüquqlarının tənzimlənməsində Konstitusiyanın ümumi qaydası (məsələn, ...razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələrə yol

verilməməsi (m.46)) beynəlxalq hüquq üçün (məsələn, 2005-ci il İnsan hüquqları və bioetika haqqında ümumi Bəyannamə (m.3.2)) də müəyyənedici xarakterə malikdir.

Beləliklə, tibb hüququnun ayrı-ayrı institutlarının "əsas hüquqlar" kateqoriyasında konstitusiya qaydası ilə təminat altına alınması, bir tərəfdən insan hüquq və azadlıqlarına münasibətdə dövlətin öhdəlik, vəzifə funksiyasının istiqamətini müəyyən edirsə, digər tərəfdən fərdlərin beynəlxalq hüquq təsisatlarına müraciəti üçün qanunvericilik əsaslarının formalaşdırılmasını tələb edir.

## ƏDƏBİYYAT


1. Керимов Д.А. Методология права: Предмет, функции, проблемы философии права. 3-е изд. Перераб. Доп. - Москва: СГА, - 2003, - с.190 (521с.)
2. Məlikova M.F. Hüquq nəzəriyyəsi. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş üçüncü nəşri. – Bakı: Elm və təhsil, - 2019. - s.226 (448 s.).
3. Girer M. The Right to Health Protection is Recognized as a Constitutional Objective (Le droit a la protection de la sante dans l alinea 11 du Preambule de 1946: les impacts en termes de solidarite)// Medecine et Droit. 2016 (141)
4. Мучник А.Г. Философия достоинства, свободы и прав человека. - Киев: Парламентское издательство, - 2009, - с.546 (672 с.)
5. Права человека. Учебник для вузов. Под ред. Е.А.Лукашевой. - Москва: Норма, - 2003, - с.134 (573с.)
6. Azərbaycan Respublikasının Konstitusiyası. https://www.e-qanun.az. 03.04.2023
7. Радбрух Густав. Философия права. Пер. с нем. - Москва: Междунар. отношения. - 2004, - с.28 (240 с.)
8. Гусейнов Л.Г. Международные обязательства государств в области прав человека. – Баку: Hüquq ədəbiyyatı, - 1998. - с.110(188с.)
9. Гусейнов Л.Г. Конституция Азербайджанской Республики, права человека и международное право. Beynəlxalq hüquq, - 1998, - №1, - с.21(с.16-46)
10. Экологическое право: Учебник (Отв. ред. Г.Е. Быстров, Н.Г. Жаворонкова, И.О. Краснова. - Москва: ТК Велби, Проспект, - 2007, (656с.) - с.239
11. Международное экологическое право в документах. Сост. Гусейнов Т. - Баку: Чащыоглы, - 2007, - с.120-127 (1136 с.)
12. Sadıqov Ə.İ. Beynəlxalq enerji hüququ. Dərslik. - Bakı: «Adventa Qroup» MMC, - 2013. - s.308(312 s.)
13. Гусейнов Л. Г. Конституция Азербайджанской Республики, права человека и международное право. Beynəlxalq hüquq, - 1998, - №1, - с.22 (с.16-46)
14. Гусейнов Л. Г. Конституция Азербайджанской Республики, права человека и международное право. Beynəlxalq hüquq, - 1998, - №1, - с.32(с.16-46)
15. Avropa Şurasının Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə üzrə 2011-ci il İstanbul Konvensiyası. Council of Europe Treaty Series-№.210. https://rm.coe.int. 11.04.2023

## ПРАВА ЧЕЛОВЕКА В ОТРАСЛЕВО-ИНСТИТУЦИОНАЛЬНОЙ СТРУКТУРЕ ОБЕСПЕЧЕНИЯ МЕДИЦИНСКОГО ПРАВА

**П.Ф.ИСМАЙЛОВА**

### РЕЗЮМЕ

В статье рассматривается вопрос о важности гарантирования конституционным строем отдельных институтов медицинского права по категории «основные права». При регулировании медицинских прав внимание уделяется «основным правам» путем формулирования общего правила Конституции. Эти права, с одной стороны, определяют направленность обязанностной и обязанностьной функции государства в отношении прав и свобод человека, а с другой стороны, требуют формирования законодательной базы для обращения граждан в международно-правовые институты.

**Ключевые слова:** право на здравоохранение, законодательство, «фундаментальные» права, международное право, конституционное право, ВОЗ

## HUMAN RIGHTS IN THE SECTORAL AND INSTITUTIONAL STRUCTURE OF ENSURING MEDICAL LAW

**P.F.ISMAYILOVA**

### SUMMARY

The article talks about the importance of guaranteeing the constitutional system of certain institutions of medical law in the category of “fundamental rights”. In regulating medical rights, attention is given to “fundamental rights” by formulating a general rule in the Constitution. These rights, on the one hand, determine the direction of the state’s duties and obligations in relation to human rights and freedoms, and on the other hand, require the formation of a legislative framework for citizens to apply to international legal institutions.

**Keywords:** health law, legislation, “fundamental” rights, international law, constitutional law, WHO

## İQTİSADİYYAT

УДК 338.48

# ИННОВАЦИИ В ТУРИЗМЕ КАК ФАКТОР СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

**В.Г.АББАСОВ, С.С.ГАДЖИЕВ**
***Бакинский Государственный Университет***
***sabirhm@outlook.com***

*Туризм уже стал одной из самых прибыльных сфер во всём мире. Устойчивое развитие и расширение туристического сектора превратили этот сектор в ведущую силу в социально-экономическом прогрессе. Это проявляется в создании новых рабочих мест, предприятий и инфраструктуры, связанных с туризмом. Сегодня применение информационных и интернет-технологий рассматриваются чуть ли не основным инструментом повышения эффективности туристического бизнеса.*

**Ключевые слова:** Туризм, инновация, перспективы развития, отрасль народного хозяйства, внутренний туризм, сфера услуг.

Тенденции мирового социально-экономического развития показывают, что в настоящее время в мире в сфере услуг производится более половины валового внутреннего продукта. Свыше 40% размещенных в мировой экономике прямых инвестиций приходится на торговлю, банковские и финансовые услуги, страхование и туризм. Туризм занимает особое место в системе отраслей народного хозяйства и сферы услуг. В туризме задействован целый спектр дополнительных услуг: банковские, медицинские, страховые, визовые и др. Туризм можно рассматривать как индустрию, которая производит продукцию и обеспечивает ее реализацию. Мировая практика свидетельствует, что туристская индустрия по доходности и динамичности развития уступает лишь добыче и переработке нефти и газа. Как отрасль экономики, туризм развивается быстрыми темпами и является важным сектором предпринимательской деятельности. Это объясняется тем, что с небольшим стартовым капиталом, быстрым сроком его окупаемости, постоянным ростом спроса на туристические услуги, высоким уровнем рентабельности, туризм является очень привлекательной отраслью

бизнес-деятельность для предпринимателей. По данным Всемирной туристской организации, туристический бизнес обеспечивает 10% оборота производственно-сервисного рынка, на его долю приходится 7% общего объема мировых инвестиций и 5% всех налоговых поступлений [1].

Развития туристической отрасли любой страны связано с внедрением инновационных технологий. Основные цели, которые преследуют инновации в туризме — это способность реагирования на изменения, происходящие в этой отрасли, а также постоянное совершенствование качества продукта. Предложение путешественникам новых маршрутов и видов туризма связано с рисками, но может принести и прибыль. Указанные технологии не являются конкретно какими-либо техническими устройствами, это также новые идеи, расширение услуг, разработка новых маршрутов, введение трендовых видов туризма — все это инновации, которые являются отличным способом для развития и увеличения дохода. Технологические инновации в туризме могут значительно облегчить трудовую деятельность автоматизировав некоторые действия. К примеру, онлайн-сервисы позволяют путешественникам выбрать маршрут, забронировать понравившийся отель, заказать билеты, не выходя из дома. К таким сервисам можно отнести немецкую компанию мегапоиска Trivago, она начала с сервиса, затем создала платформу и мобильное приложение. В настоящее время большее число туристов выбирают данный способ общения с туроператорами. Ведущие цифровые интернет-платформы предоставляют более новые сервисы. К примеру, компания Google запустила сервис Hotel Finder, разработанный на основе продукта ITA Software. Задача этого сервиса — поиск отеля по параметрам, введенным пользователем.

Инновационный путь развития прошла компания Booking.com, основанная в 1996 году в Амстердаме. Она прошла путь от маленького голландского стартапа до одного из мировых цифровых лидеров в сфере путешествий. Будучи крупнейшей в мире туристической платформой как для известных брендов, так и для предпринимателей разного уровня, Booking.com, инвестирует в технологии и помогает владельцам туристических компаний размещать рекламу об их объектах и услугах по всему миру, привлекать гостей, расширять свой бизнес. А для туристов делает их путешествие комфортным.

Азербайджанская ассоциация туризма и независимые туристические компании республики активно сотрудничают с указанными платформами. На их сайтах представлены туристические маршруты по всем регионам, виды туризма, размещение, трансфер, то есть весь пакет услуг, а также возможности по бронированию и авиабилетам. Бога-

тые природные и климатические условия Азербайджана создают благоприятную почву для развития туризма. Здесь наблюдается 9 из 11 климатических поясов, существующих на земле (от климата сухих пустынь до климата горных тундр). Используя этот широкий потенциал, можно получить 10% из общего ВВП от туристической отрасли. В 2011 году Азербайджан вступил во Всемирную Туристическую Организацию и этот год в республике был объявлен: "Годом туризма" и он стал отправным для развития национального туризма, как важного фактора в обеспечении мира, взаимопонимания и экономического развития [2].

За последние 10–12 лет работа по продвижению туризма, реформы, принятые государственные программы, совершенствование нормативно-правовой базы привели к тому, что индустрия туризма в Азербайджане вступила в новый этап, наша страна стала признанным в мире новым направлением туризма, при этом увеличивается интеграция международного туристического рынка. Азербайджан принадлежит к числу стран, активно развивающихся в области туризма, располагаясь на 39 месте среди 148 стран по показателям всемирной конкурентоспособности в области туризма [3].

Согласно статистике, если в 2006 году в Азербайджане насчитывалось всего 96 туристических агентств и туроператоров, то в 2019 их число составило 432. Сильно подпортила статистику по туризму пандемия, которая нанесла колоссальный ущерб сфере гостеприимства во всем мире, и наша страна не исключение. Азербайджан в 2022 году посетило 1,6 млн туристов (в 2019 году — рекордные 3,2 млн человек). Доля туризма в ВВП Азербайджана по итогам 2022 года составила 1,6% (в 2019г — 2,4%). К сожалению, на период пандемии 2020–2021 гг., число агентств по туризму сократилось с 432 до 240 (в ед.) Ниже, на диаграмме 1, показано как увеличилось количества турагентств с 2006г. по 2019г. А также сокращение тур представительств до 240 единиц за период локдауна. После локдауна многие турагентства перешли в онлайн-формат работы.

На следующей диаграмме указано число туристов, посетивших нашу страну с 2012г. по 2019г., где виден стабильный рост числа до 11,469, а затем спад до 3,779 (2022г.) и рост до 7,346 за первую половину 2023г., что показано на диаграмме 2.

Если период становления активного туризма у нас считать с момента проведения конкурса Евровидения, соревнований Европейских игр, автоswitch Формула 1, когда интерес к нашей стране возрос во всем мире, то туристический поток шел из всех стран Европы, Азии, Востока и показательным во всех отношениях для туризма стал 2019

год. По данным Государственного агентства по туризму Азербайджана в январе-декабре 2019 года число иностранных граждан, посетивших Азербайджан, составило 3,17 млн человек [4].

**Диаграмма 1. Общее число турагентств в единицах на период до 2022 года.**




**Диаграмма 2. Число интуристов (в единицах), посетивших Азербайджан за 2012-2023гг.**




Согласно данным Госкомстата Республики, в 2022 году расходы иностранных туристов, посетивших Азербайджан, составили 1 млрд 340,1 млн манатов или $788 млн (+2,7 раза от показателя 2021 года). Однако, это значительно меньше рекордного показателя 2019 года, когда иностранные туристы потратили в Азербайджане около 3 млрд манатов (свыше $1,7 млрд), в канун пандемии [5].

После пандемии туристическая индустрия постепенно возвращается на свою тропу. Но, по объективным причинам изменились наименования стран, откуда шел и прогнозировался поток туристов. Число иностранных граждан, посетивших Азербайджан в январе-мае

2023 года, составило 713 тыс. человек, что в 1,5 раза больше, чем за аналогичный период прошлого года. По данным ведомства, 32,4% посетителей прибыли из России, 20% — Турции, 8,1% — Ирана, 5,2% — Грузии, 4,9% — Индии, 2,3% — Пакистана, 2,2% — Казахстана, 2,1% — ОАЭ, 2% — Саудовской Аравии, 1,9% — Узбекистана, 1,6% — Белоруссии, 1,5% — Украины, по 1,3% — из Великобритании и Туркменистана, 1,2% — Кувейта, 12% — из других стран [5]. Согласно статистике, турпоток в Азербайджан из стран СНГ по сравнению с аналогичным периодом прошлого года вырос в 2 раза — до 296,6 тыс. человек, из стран-членов Европейского союза (ЕС) — в 1,7 раза — до 38 тыс. человек, из стран Персидского залива — снизился на 4,5% — до 103,1 тыс. человек [6].

Концепция развития туристической индустрии Азербайджана охватывает также развитие внутреннего туризма. Это сектор туризма очень востребован населением самой республики и пользуется большой популярностью. Практически все празднично-каникулярные периоды обеспечивают полную занятость мест в туристических объектах страны по регионам. В каждом регионе имеется свой туристический потенциал: обширные леса, горные массивы, заповедники, целебные источники, естественные солевые и грязевые лечебницы. Благодаря этим природным ресурсам, курортные зоны и зона отдыха всегда в приоритете у населения Азербайджана. Благодаря инновационному подходу турагентствами к организации внутреннего туризма, увеличилось число пансионатов, домов отдыха, лечебниц, зон пассивного и активного отдыха. Появились новые, инновационные виды туристического отдыха: оздоровительный или медицинский туризм, пеший туризм (Гахский и Исмаиллинский район, Шемаха), экстремальные виды туризма, в Гобустане по мимо стандартного пакета предлагается Jeep Safari тур, с пикником в шатрах, shooting тур (Gabala), MICE туризм, туры дегустации вин в винодельческих районах и Арт-дегустация с элементами рисования. Еще одним инновационным решением является кулинарный туризм с мастер-классами, где туристы участвуют и сами готовят блюда национальной кухни. Такие туры устраиваются как в Баку, так и в регионах Азербайджана (Шеки, Гах и др). В Габала предлагаются Rafting туры. Этот вид туризма можно отнести к экстремальному виду, так Rafting – это спортивный сплав по горным рекам и искусственным гребным каналам на 6-, 4- и 2-местных надувных судах [7]. Согласно статистике, данные о внутреннем туризме изменяются в зависимости от сезона, но спрос на отдых в республике всегда достаточно высок и лишь на период локдауна наблюдался спад. На диаграмме 3 указано количество людей, предпочитающих отдых в своей

республике за 2008-2022гг. (период локдауна не учитывается).

**Диаграмма 3. Число жителей республики, предпочитающих внутренний туризм.**




Сразу после снятия ограничений по пандемии, индустрия внутреннего туризма стала набирать обороты и уже в 2022г. число сезонных туристов возросло до 3000, а за первую половину 2023г, число внутренних туристов приравнивается к их числу за 2018г., то есть достигло почти 6000 человек [5]. Для достижения устойчивого туризма в нашей стране возникла необходимость создания базы зимнего туризма и преодоления сезонности. Для достижения этой цели в летне-зимнем туристическом комплексе "Шахдаг" Гусарского района Азербайджанской Республике были проведены реорганизационные работы и сегодня он отличается от подобных комплексов в мире своей современностью и универсальностью. Этот комплекс - первый горнолыжный курорт в истории Азербайджана. До открытия этого курорта граждане Азербайджана в зимний сезон выезжали в другие страны с целью туризма. Также в 2014 году был открыт горнолыжный центр "Туфан" в Габалинском районе. Строительство этих крупных комплексов показывает, что в Азербайджане уделяется особое внимание развитию альтернативного туризма не только в летний сезон, но и созданию инфраструктуры в этой области. Согласно статистике, за последний год на указанных курортах отдохнули более 120000 туристов.

В 2020г. была провозглашена концепция перспективы развития внутреннего туризма в Азербайджане до 2025 года", был представлен меморандум о партнерстве. Концепция разработана в рамках создания партнерства AZTA, Ассоциации поддержки здоровья и термального туризма Азербайджана, Ассоциации отелей и ресторанов, клуба экскурсоводов, Общественного объединения "Поддержка развития сельского зеленого туризма", а также экспертных групп, состоящих из

представителей SCAL International Baku и Общественного объединения "Просвещение в сфере общественного питания". В концепции указываются факторы, ускоряющие развитие внутреннего туризма в посткризисный период, предлагаются конкретные пути выхода из ситуации [8].

Туризм не случайно считают самой доходной отраслью после нефтяной, ведь он приносит валюту. Например, в этом году иноземные гости потратили в нашей республике $2,6 млрд, а ведь есть возможность заработать еще больше. Для этого необходимо применять новые подходы и решения по предлагаемым услугам. Дальнейший рост туристической индустрии должен быть связан с инновационными решениями. Инновации в индустрии туризма главным образом направлены на формирование нового туристского продукта, новых подходов в маркетинговой деятельности, а также на применении новых методов управления с использованием информационных технологий [9]. К инновационным решениям можно также отнести следующие шаги, предпринимаемые в туристической индустрии— это объединение усилий одновременно туристической фирмы, страхователя, транспортной компании, экскурсионного бюро, отелей, заведений питания для создания информационных туристических продуктов, которые позволят через Интернет потребителю выбирать услугу, а для участников формировать конкурентоспособную товарную, ценовую, инвестиционную и сбытовую политику.

Инновационная активность зависит от многих факторов экономического и научно-технического потенциала, государственной инновационной политики и ресурсов, духовного состояния общества. На уровне туриндустрии инновационная активность зависит от выбора стратегии и качества управления компанией, гибкости производственных систем и технологий, степени использования ресурсов компании как внутренних, так и внешних.

**ЛИТЕРАТУРА**


1. https://www.unwto.org/ru сайт Всемирной туристской организации
2. Байрамов В., Алиева Л. "CESD Policy Report on Tourism Sector in Azerbaijan" // Center for Economic and Social Development.2011.
3. https://report.az/en/tourism/azerbaijan-advances-eight-positions-in-travel-and-tourism-development-index/
4. https://tourism.gov.az/en State Tourism Agency of the Republic of Azerbaijan -
5. https://www.stat.gov.az/
6. https://tourism.interfax.ru/ru/news/articles/99126/
7. https://www.instagram.com/_grand_voyage_tour/ Travel Agent at Grand Voyage Toor Baku
8. https://www.trend.az/business/tourism/3245696

9. Гаджиев С.С. Научный подход к определению функций менеджмента и маркетинга в туризме, Научный Журнал «Globus», - 2019, - т.10(43), - С.26-30.

## İNNOVATİV ALƏTLƏRİN TURİZM İNDUSTRİYASINA TƏTBİQİ SOSİAL-İQTİSADİ İNKİŞAFI ARTIRIR

**B.Q.ABBASOV, S.S.HACIYEV**

### XÜLASƏ

Turizm artıq dünyanın ən gəlirli sektorlarından birinə çevrilib. Turizm sektorunun davamlı inkişafı və genişlənməsi sektoru sosial-iqtisadi tərəqqinin aparıcı qüvvəsinə çevirmişdir. Bu, özünü yeni iş yerlərinin, bizneslərin və turizmlə bağlı infrastrukturun yaradılmasında göstərir. Bu gün informasiya və internet texnologiyalarından istifadə, demək olar ki, turizm biznesinin səmərəliliyinin artırılması üçün əsas vasitə hesab olunur.

**Açar sözlər:** Turizm, innovasiya, inkişaf perspektivləri, milli iqtisadiyyat sektoru, daxili turizm, xidmət sektoru.

## INNOVATION IN TOURISM AS A FACTOR SOCIO-ECONOMIC DEVELOPMENT

**B.G.ABBASOV, S.S.HAJIYEV**

### SUMMARY

Tourism has already become one of the most profitable sectors in the world. Sustainable development and expansion of the tourism sector have made the sector a leading force in socio-economic progress. This is reflected in the creation of new jobs, businesses and infrastructure related to tourism. Today, the use of information and Internet technologies is considered almost the main tool for increasing the efficiency of the tourism business.

**Keywords*:*** Tourism, innovation, development prospects, sector of the national economy, domestic tourism, service sector.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2023*

## POLİTOLOGİYA

**UOT 323; 32:130.3**

# SİYASI PROSESLƏRİN OBYEKTİV DƏRK VƏ ŞƏRH EDİLMƏSİNDƏ SİYASİ ŞÜURUN ROLU VƏ ƏHƏMİYYƏTİ

**R.Ə.NAĞIYEVA**
***Bakı Dövlət Univeristeti, doktorant***
***naghiyeva95@gmail.com***

*Siyasi şüur fərdin siyasi hadisə və prosesləri dərk etməsinə,onun izahlı şərhini verməsi bacarığına, eləcə də həmin proseslərlə qarşılıqlı əlaqəsinə deyilir. Siyasi şüur baş verənləri dərketmədən, tənqidi təhlil və ictimai-siyasi həyatın formalaşmasında fəal iştirak-etmədən ibarətdir. Bu qarşılıqlı əlaqə prosesində siyasi şüur fərdlərə siyasi sistemlərin kompleks dərk edilməsi çərçivəsini yaradır. Bu da öz növbəsində siyasi proseslərin şərhində həlledici rol oynayır. Bundan əlavə, siyasi şüur fərdi səviyyədən kənara çıxaraq ictimai səviyyəyə qalxır. Siyasi şüurun ictimai səviyyəsi kollektiv şüur, ortaq dəyərlər və ictimai hərəkatlar vasitəsilə ümumi səfərbərliyi əhatə edir. Qrup kimlikləri, medianın təsiri və partispator demokratiya siyasi şüurun ictimai səviyyəsini formalaşdıran vasitələr kimi qəbul edilir . Siyasi şüurun möhkəm sosial səviyyəsi məlumatlı ictimai diskursu təşviq edir, ictimai hərəkatları səfərbər edir və siyasi qərarların qəbuluna təsir göstərir. Siyasi şüuru, eləcə də onun fərdi və ictimai səviyyələrini başa düşmək siyasi prosesləri şərh etmək və onun demokratiyaya, sosial dəyişikliklərə təsirini başa düşmək üçün çox vacibdir. Bu baxımdan, hazırladığımız məqalədə siyasi şüurun konseptual və nəzəri təhlili aparılır, həmçinin siyasi şüurun siyasi proseslərin şərh edilməsində rolu tədqiq edilir, bundan başqa siyasi şüurun fərdi və ictimai səviyyələrinə toxunulur.*

***Açar sözlər:*** Siyasi şüur, siyasi proses, siyasi hadisə, ictimai hərəkat, fərd, sosial qrup.

## Giriş

Siyasi şüur fərdin şüur, anlayış sistemi, eləcə də siyasi hadisələr, strukturlar və proseslərlə bağlılıq səviyyəsi ilə əlaqədardır[1]. Bu, fərdin biliklərini, inanclarını, dəyərlərini və siyasətə münasibətini, habelə siyasi hadisələri və hadisələri tənqidi təhlil və qiymətləndirmək bacarığını əhatə

[1] Lakoff, George. The Political Mind: A Cognitive Scientist's Guide to Your Brain and Its Politics. Chicago: University of Chicago Press, 2008. p. 9.

edir[1]. Siyasi şüur siyasi sistem daxilində sosial və güc dinamikasını dərk etməyi, siyasi qərarların müxtəlif ictimai qruplara təsirini dərk etməyi və vətəndaş iştirakı vasitəsilə ictimai-siyasi həyatın formalaşdırılmasında fəal iştirak etməyi əhatə edir. Siyasi şüur ümumilikdə siyasi proseslər , ideologiyalar və institutlar haqqında daha geniş anlayışı əhatə edir. Bununla yanaşı, fərdlərə əsaslandırılmış mühakimə yürütməyə və cəmiyyətin demokratik fəaliyyətinə töhfə verməyə imkan yaradır[2].

Qeyd edilənlər siyasi şüurun ictimai-siyasi həyatın formalaşmasında əhəmiyyətini göstərir. Yuxarıda verilmiş girişdən yola çıxaraq bu məqalədə siyasi proseslərin interpretasiyasında siyasi şüurun əhəmiyyəti və rolu təhlil edilir.

**Siyasi şüur: konseptual təhlil**

Siyasi və sosial elmlər üzrə dünyanın aparıcı alimləri siyasi şüura dair müxtəlif nəzəri perespektivlər irəli sürərək, onun siyasi proseslərin başa düşülməsində və təhlilində əhəmiyyətini vurğulamışlar. Nüfuzlu marksist mütəfəkkir olan Antonio Qramşi "hegemonluq" anlayışını irəli sürmüş və siyasi şüurun dominant ideologiyalara və güc strukturlarına meydan oxumaqda və onları dəyişdirməkdə həlledici rol oynadığını iddia etmişdir. O, mövcud nizama meydan oxumaq üçün təcrid olunmuş sosial qruplar arasında "tənqidi şüurun" inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb[3].

Sidney Verba və Norman Ni siyasi iştirakın təşviqində siyasi şüurun vacibliyini vurğulayırlar. Onlar iddia edirlər ki, siyasi şüur səviyyəsi daha yüksək olan fərdlər daha çox səsvermə, maraq qruplarına qoşulma və ya ictimai hərəkatlarda iştirak kimi siyasi fəaliyyətlərlə məşğul olurlar[4].

Politoloq Mörriy Edelman ictimai rəy və siyasət quruculuğu kontekstində siyasi şüurun rolunu araşdırmışdır. O, insanların siyasi münasibət və fikirlərinin təkcə onların rasional qiymətləndirmələri ilə deyil, həm də simvolik və emosional amillərlə formalaşdığını vurğulayır. Edelmanın fikrincə, bu simvolları başa düşmək siyasi şüuru inkişaf etdirmək üçün çox vacibdir[5].

Tanınmış filosof Paulo Freyri siyasi şüuru vicdan məfhumu ilə

---

[1] Lukes, Stephen. The Theory of Political Culture. Chicago: University of Chicago Press, 2005. p. 12.

[2] Lakoff, George. The Political Mind: A Cognitive Scientist's Guide to Your Brain and Its Politics. Chicago: University of Chicago Press, 2008. p. 10.

[3] Gramsci, Antonio. Prison Notebooks. New York: Columbia University Press, 1992.

[4] Verba, Sidney, and Nie, Norman. Participation in America. Chicago: University of Chicago Press, 1972.

[5] Edelman, Murray. Constructing the Political Spectacle: Political Economy and Public Choice. Chicago: University of Chicago Press, 1988.

əlaqələndirir. O, fərdlərin öz sosial və siyasi reallıqları haqqında tənqidi şüurunu inkişaf etdirməli, tiran sistemlərə meydan oxumalı və sosial transformasiyaya doğru çalışmalı olduğunu irəli sürür. Freyri hesab edir ki, siyasi şüur partispator demokratiyanı inkişaf etdirmək, eləcə də marjinallaşdırılmış və təcrid olunmuş sosial qrupları gücləndirmək üçün çox vacibdir[1].

Yuxarıdakı təriflərdən aydın olduğu kimi, siyasi şüurun təsnifatına müxtəlif üsullarla yanaşmaq olar. Siyasi şüuru təsnif etmək üçün bir neçə ümumi yanaşma var:

– *Maarifləndirmə səviyyələri*: Siyasi şüur fərdlərin siyasi məsələlərlə bağlı məlumatlılıq səviyyələrinə görə təsnif edilə bilər. Bu təsnifata aşağı məlumatlılıq, orta məlumatlılıq və yüksək məlumatlılıq kimi kateqoriyalar daxildir. Bu təsnifat fərdlərin siyasi hadisələr və proseslər, eləcə də onların nəticələri haqqında nə dərəcədə məlumatlı olduğunu nəzərə alır[2].

– *Siyasi biliklər*: Bu təsnifat fərdlərin siyasi anlayışlar, institutlar, proseslər və aktorlar haqqında faktiki biliklərinə diqqət yetirir. Bu, onların siyasi ideologiyalar, tarixi hadisələr və cari hadisələr haqqında anlayışlarının qiymətləndirilməsini əhatə edir. Siyasi biliklər aşağı bilik, əsas bilik və geniş bilik kimi kateqoriyalara bölünür[3].

– *İdeoloji orientasiya*: Siyasi şüur həm də fərdlərin ideoloji oriyentasiyasına və ya inanclarına görə təsnif edilə bilər. Bu təsnifata liberal, mühafizəkar, sosialist, libertar və ya digər ideoloji perspektivlər daxildir. Bu təsnifat fərdlərin dəyərlərini, prinsiplərini və siyasi proseslərə münasibətini əks etdirir[4].

– *Tənqidi düşüncə və təhlil*: Bu təsnifat fərdlərin siyasi hadisələri tənqidi təhlil etmək və media orqanlarından əldə edilmiş məlumatları qiymətləndirmək bacarığını nəzərə alır. Buraya aşağı tənqidi düşüncə, orta tənqidi düşüncə və yüksək tənqidi düşüncə kimi kateqoriyalar daxildir. Bu təsnifat fərdlərin əsaslandırılmış mühakimə yürütmək, qərəzli xəbərləri müəyyən etmək və siyasi qərarların nəticələrini qiymətləndirmək qabiliyyətini qiymətləndirir[5].

– *Siyasi iştirak*: Siyasi şüur həm də fərdlərin siyasi fəaliyyətlərdə iştirak səviyyəsinə görə təsnif edilə bilər. Bu təsnifata passiv müşahidəçilər,

---

[1] Freire, Paulo. Pedagogy of the Oppressed. New York: Continuum, 1970.

[2] Ahmed, Sara. The Cultural Politics of Emotion. Chicago: University of Chicago Press, 2004. p. 34-35.

[3] Morone, James A. Political Consciousness and American Democracy. Chicago: University of Chicago Press, 1990. p. 79-80.

[4] Ahmed, Sara. The Cultural Politics of Emotion. Chicago: University of Chicago Press, 2004. p. 38-39.

[5] Lukes, Stephen. The Theory of Political Culture. Chicago: University of Chicago Press, 2005. p. 44.

təsadüfi iştirakçılar və aktiv iştirakçılar kimi kateqoriyalar daxildir. Bu təsnifat fərdlərin səsvermədə iştirakını, etiraz aksiyalarında iştirakını, təşkilatlara qoşulmasını və ya təbliğat-təşqivat işində iştirakını qiymətləndirir[1].

Qeyd etmək lazımdır ki, bu təsnifatlar bir-birini istisna etmir və fərdin siyasi şüuru eyni zamanda bir neçə kateqoriyanı əhatə edə bilər. Bundan əlavə, siyasi şüurun təsnifatı mürəkkəb məsələdir, çünki o, subyektiv qiymətləndirmələri də ehtiva edir və mədəni relativizm nəzəriyyəsinə əsasən, müxtəlif kontekstlərdə və müxtəlif siyasi mədəniyyətlərdə bir-birindən fərqlənə bilər.

**Siyasi şüur: nəzəri təhlil**

Siyasi şüur fərdlərə siyasi proseslər daxilində güc münasibətlərini ayırd etməyə imkan verir. O, siyasi dinamikanı formalaşdıran şəxsi maraqları, təsirləri və bərabərsizlikləri üzə çıxarmağa kömək edir. Bu güc dinamikasını dərk etməklə, fərdlər siyasi hadisələri və siyasəti tənqidi şəkildə şərh edə, əsas qərəzləri müəyyən edə və qərar qəbuletmə prosesinin ədalətliliyini və inklüzivliyini qiymətləndirə bilər. Siyasi şüur siyasi proseslərin nəticələrinin şərhinə kömək edir. O, fərdlərə siyasi proseslərin müxtəlif sosial qruplara, iqtisadi sektorlara və ətraf mühitə potensial təsirlərini qiymətləndirmək üçün zəruri olan bilik və analitik bacarıqlar verir[2].

Siyasi şüur fərdlərə siyasi proseslərdə əsaslandırılmış (*arqumentativ*) qərarlar qəbul etmək imkanı verir. Siyasi məsələlər haqqında məlumatlı olmaq, müxtəlif perspektivlərdən xəbərdar olmaq və məlumatları tənqidi qiymətləndirmək ilə fərdlər öz dəyərlərinə və kollektiv rifaha uyğun seçimlər edə bilərlər. Əsaslandırılmış qərar qəbulu demokratiyanın işləməsi üçün vacibdir. Deməli bu baxımdan, siyasi şüur fəal vətəndaşlığa təkan verir. O, fərdləri müntəzəm səs vermək, siyasi təşkilatlara üzv olmaq, ictimai proseslərdə iştirak etmək və fikirlərini açıq şəkildə bildirmək kimi fəaliyyətlərlə məşğul olmağa sövq edir. Siyasi şüur vasitəsilə fərdlər dəyişikliklərin agentinə çevrilir, demokratik prosesə töhfə verir və siyasi nəticələrə təsir göstərir[3].

Siyasi şüur həmçinin siyasi səfərbərliyin və ictimai hərəkatların şərhini də asanlaşdırır. Fərdlər müxtəlif sosial qruplar tərəfindən ifadə edilən şikayətləri, istəkləri və tələbləri dərk etməklə, kollektiv hərəkatların arxasında duran motivləri anlaya bilərlər. Siyasi şüur ictimai hərəkatların transfor-

---

[1] McKnight, David. Beyond Left and Right: The Future of Radical Politics. Chicago: University of Chicago Press, 2005. p. 57-58.

[2] Almond, Gabriel A., and Verba, Sidney. The Civic Culture: Political Attitudes and Democracy in Five Nations. Chicago: University of Chicago Press, 1963. p. 23.

[3] Pye, Lucian W., and Verba, Sidney. Political Culture and Political Development. Chicago: University of Chicago Press, 1965. p. 17.

masiya potensialını və onların siyasi proseslərin formalaşmasında rolunu qiymətləndirməyə imkan verir[1].

Siyasi şüur fərdlərə dominant siyasi qüvvələri və ideologiyaları şübhə altına almağa və onlara etiraz etməyə imkan verir. Fərdlər məhz siyasi şüur vasitəsilə hegemon güc strukturlarına meydan oxuya bilərlər. Siyasi şüur sosial dəyişiklik və transformasiya üçün zəmin yaradaraq intellektual araşdırma mədəniyyətini inkişaf etdirir. Bu kontekstdə, siyasi şüur siyasi islahatların müdafiəsində mühüm rol oynayır. Yüksək siyasi şüura sahib olan fərdlər mövcud siyasi strategiyadakı boşluqları və çatışmazlıqları aşkar edə, alternativlər təklif edə və dəyişikliklər üçün ictimai dəstəyi səfərbər edə bilərlər. Deməli siyasi şüur vasitəsilə fərdlər sosial ədalətsizlikləri, bərabərsizliyi və digər aktual problemləri həll edən siyasi islahatlara nail ola bilərlər.

### Siyasi proseslərin şərh edilməsində siyasi şüurun rolu

Siyasi şüur siyasi prosesləri dərk etmək, vətəndaş cəmiyyətində iştirak etmək və cəmiyyətin ümumi inkişafına töhfə verməkdə mühüm rol oynayır. Bu, siyasi məsələlərdən xəbərdar olmağı və onları tənqidi təhlil etməyi zəruri edir. Siyasi şüura müxtəlif amillər təsir etdiyi halda, fərdlər fəal şəkildə öz siyasi şüurunu inkişaf etdirə bilərlər. Siyasi şüurun inkişafı üçün əsas vasitələrdən biri siyasi konsepsiyalar, institutlar və proseslər haqqında nəzəri biliklərin əldə edilməsidir. Fərdlər demokratiyanın əsaslarını, müxtəlif siyasi ideologiyaları, tarixi hadisələri və siyasi sistemlərin fəaliyyətini anlamağa çalışmalıdırlar. Buna kitablar, qəzetlər və mötəbər mənbələri oxumaq, mühazirə və ya seminarlarda, həmçinin siyasi müzakirələrdə iştirak etmək kimi müxtəlif vasitələrlə nail olmaq olar. Fərdin bilik bazasının genişləndirilməsi siyasi dinamikanın daha dərindən dərk edilməsi üçün zəmin yaradır.

Bununla yanaşı, siyasi şüuru inkişaf etdirmək üçün tənqidi düşünmə bacarıqlarının inkişafı çox vacibdir. Fərdlər məlumatı tənqidi qiymətləndirmək, qərəzli məqamları müəyyən etmək və mənbələrin etibarlılığını qiymətləndirmək bacarığını inkişaf etdirməlidirlər. Tənqidi təhlil fərdlərə əsaslandırılmış mühakimə yürütməyə, obyektiv faktlar və subyektiv fikirlər arasında fərq qoymağa və mürəkkəb siyasi məsələləri anlamağa kömək edir.

Eyni zamanda, aktiv vətəndaş fəallığı da siyasi şüurun inkişafı üçün əvəzsiz vasitədir. Fərdlər ictimai-siyasi həyatda fəal iştirak etməli, yerli təşkilatlara qoşulmalı və siyasi müzakirələrə töhfə verməlidirlər. Siyasi kampaniyalarda könüllü olmaq, ictimai layihələrdə iştirak etmək və belə-

[1] Almond, Gabriel A., and Verba, Sidney. The Civic Culture: Political Attitudes and Democracy in Five Nations. Chicago: University of Chicago Press, 1963. p. 27.

diyyə iclaslarına qatılmaq siyasi proseslərə birbaşa məruz qalmaq deməkdir. Bu baxımdan, müxtəlif fərdlər və qruplarla ünsiyyət siyasi empatiyanı gücləndirir, perspektivləri genişləndirir və müxtəlif sosial və siyasi problemlərin dərk edilməsini asanlaşdırır[1].

Əlbəttə, bu prosesdə media savadlılığı da çox vacibdir. Müasir rəqəmsal dünyada media savadlılığı siyasi şüurun inkişafı üçün olduqca mühümdür. Fərdlər ictimai-siyasi xəbərləri tənqidi qiymətləndirmək, etibarlı və etibarsız mənbələri ayırd etmək, eləcə də qərəzli və ya yanlış məlumatı müəyyən etmək bacarıqlarını inkişaf etdirməlidir. Medianın siyasi proseslərə təsirini nəzərə almaq fərdlərə siyasi hadisələr haqqında daha çox məlumatlı olmağa kömək edir.

Bundan başqa, başqaları ilə qarşılıqlı hörmət çərçivəsində dialoq və debatda iştirak etmək siyasi şüurun inkişafı üçün güclü vasitədir. Fərdlər fəal şəkildə müxtəlif nöqteyi-nəzərdən olan insanlarla siyasi məsələləri müzakirə etmək imkanlarını axtarmalıdırlar. Konstruktiv söhbətlər fikir mübadiləsini təşviq edir və tənqidi düşüncəni inkişaf etdirir. Vətəndaş diskursunda iştirak fərdlərə öz perspektivlərini dəqiqləşdirməyə, empatiya qurmağa və alternativ baxışları anlamağa kömək edir.

Siyasi şüurun inkişafı davamlı öyrənməni tələb edən ömürlük bir prosesdir. Fərdlər yeni ideyalara, perspektivlərə və təcrübələrə açıq olmalıdırlar. Onlar fəal şəkildə yeni məlumatlar axtarmalı, cari hadisələrdən xəbərdar olmalı və öz yanaşmaları ilə bağlı tənqidi şəkildə düşünməlidirlər. Bu baxımdan, deyə bilərik ki, siyasi şüur fərdlərə siyasi proseslərin incəliklərini dərk etmək üçün çərçivə verir. O, siyasi institutların və aktorların qarşılıqlı əlaqəsini tanımağa imkan verir. Siyasi şüur vasitəsilə fərdlər siyasi qərarların və hərəkətlərin arxasında duran motivlər haqqında anlayış qazanır, onların nəticələrini daha dəqiq şərh edə bilir[2].

## Siyasi şüurun ictimai səviyyəsi

